# DÜŞÜNƏN İNSAN

№ 18 - Fevral 2013 - 2 AZN

## İslam Əxlaqında Sevgi və Keyfiyyət anlayışı



- Maddə ruhun izahıdır
- Allahın varlığı elmi cəhətdən sübut edilə bilər
- Xurafatçıların səhv din anlayışı və bunun dinə verdiyi zərər
- Cənab Adnan Oktarın Xocalı soyqırımı ilə bağlı sözləri
- İnsan bədəni mütənasib şəkildə necə böyüyür?

## 3 FİLM HƏDİYYƏ

HZ MEHDİNİN (Ə.S) MÜBARİZƏSİ

KAİNATIN YARADILIŞI

QURAN MÖCÜZƏLƏRİ


بسم الله الرحمن الرحيم
Bu jurnalın məqalələrinin hazırlanmasında
Harun Yəhya (Adnan Oktar)
əsərlərindən istifadə edilmişdir
Aylıq abunə olmaq istəyənlər üçün
əlaqə nömrəsi
012-434-93-01
الله
رسول
محمد

DÜŞÜNƏN İNSAN - Fevral 2013;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (077) 381 61 91; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# DÜŞÜNƏN İNSAN

## içindəkilər



Elmi-texnoloji xəbərlər 4
İslam dünyasında keçən ay 6
Bir ayə, bir açıqlama 13
Maddə ruhun izahıdır 24
Xurafatçıların səhv din anlayışı və bunun dinə verdiyi zərər 30
















Şərq-Qərb mətbəəsində çap olunmuşdur

# içindəkilər























www.dovletebagliliq.com

*Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz.*

*Heydər Əliyev*






# Elmi-Texnoloji Xəbərlər

## QIRILAN SÜMÜKLƏR ÜÇÜN YAPIŞQAN

İsveçli elm adamları qırılmış sümüklərin yenidən birləşməsində istifadə ediləcək yapışqan kəşf edib. İsveç Kral Texnologiya İnstitutunda hazırlanan, 14 illik fəaliyyətin məhsulu olan bu yapışqan sayəsində qırılmış sümüklərin təmir edilməsində inqilab olacağı gözlənilir. Təkcə qol və ayaq sınıqlarında deyil, onurğa və ya kürək sümüyü kimi daha mürəkkəb sınıqlarda da işə yarayan bu yapışqanla sümükləri birləşdirmək üçün istifadə edilən metal lövhələr tarixə qarışacaq. Metal lövhələrin xəstələrin bədənində həyatları boyu qalması ən böyük problemlərdən biridir. Halbuki, yeni hazırlanmış yapışqan sümük birləşdikdən sonra əriyir və heç bir izi qalmır.



## PANDA QANINDAKI SUPER ANTİBİOTİK



Nəsli tükənmə təhlükəsi altında olan pandalar bəşəriyyətin gələcəyi üçün çox mühüm dərmanın hazırlanmasına töhfə verə bilər. Elm adamları panda qanındakı güclü antibiotik birləşmənin yeni müalicə üsullarının kəşf edilməsində böyük rol oynayacağını bildiriblər.

Çinin Nanjinq Kənd Təsərrüfatı Universitetindən dr. Xiuwen Yanın rəhbərlik etdiyi tədqiqat qrupu böyük pandaların genomu üzərində apardıqları təhlillərdə maraqlı kəşf edib. Pandanın DNT-si üzərində aparılan təhlillər canlının immun sistemində güclü antibiotik birləşmə tapıb.

Çinli elm adamlarının “cathelicidin –AM” adlandırdığı birləşmənin zərərli bakteriyaları bir saatdan da az müddətdə öldürdüyü bildirilib. Bu müddət tibb dünyasında bu gün istifadə edilən bir çox antibiotikin təsir müddətindən altı dəfə sürətlidir.

Dr. Yan panda qanındakı bu antibiotikin təsirindən ingilis “Daily telegraph” qəzetinə müsahibəsində bəhs edib: “Cathelicidin-AM” dərmanlara müqavimət göstərən bakteriya və göbələklər də daxil olmaqla, çoxsaylı mikroorqanizmlərə təsir edir. Ənənəvi antibiotiklərdən istifadə edərək mikroorqanizmlərin müqavimətini artırmaq kimi risk var ikən ən qısa müddətdə yeni mikrob öldürücü dərmanlara ehtiyacımız var”.

### Çox güclü antibiotik hazırlana bilər

Zərərli mikroorqanizmlərə qarşı mübarizə mərhələsində gen kodlanan antimikrobik peptidlər mühüm rol oynayır. Peptidlər ənənəvi antibiotiklərlə müqayisədə mikrobların daha az müqavimət göstərməsinə səbəb olur. Bu günə qədər müxtəlif heyvan, bitki və mikroorqanizm növlərindən 1000-dən çox antimikrobik peptid əldə edilib.

Elm adamları bildiriblər ki, cathelicidin-AM birləşməsinin pandalarda olduğu kimi, insan qanında da antibiotik təsiri göstərsə, ondan çox güclü antibiotik hazırlana bilər. Dr. Yan və həmkarları antibiotiklərə müqavimət göstərən bakteriyaları kökündən məhv edəcək yeni müalicə metodu ilə yanaşı, ümumi gigiyenanın təmin edilməsi üçün antiseptik maddə hazırlayacaqlarına da ümid edirlər.

## ANTİK POMPEYDƏ TƏKMİL KANALİZASİYA SİSTEMİ VARDI

Vezuvi vulkanının b.e. 79-cu ilində partlaması ilə xəritədən silinən antik Pompey şəhərinin qalıqları arasında yeni maraqlı kəşf edilib. Şəhərdəki daş binaların ikinci mərtəbəsi məhv olsa da, yuxarı mərtəbələrdən aşağıya uzanan boruların üzə çıxarılması bir vaxtlar yuxarı mərtəbələrdə tualet olduğu fikrini ortaya atıb. Antropoloq Keyt Truslerin aşkar etdiyi boru qalıqları dövrümüzə qədər gəlib çatmış evlərin, demək olar ki, hamısında var. “Livescience” saytına müsahibə verən Trusler: “İkinci mərtəbəsi hələ də qalan 23 evdə küçəyə kimi uzanan borular tapmışıq”, - deyib. ABŞ-nın Sietl şəhərində hər il təşkil edilən Amerika Arxeologiya İnstitutunun konfransında tapıntıları açıqlayan Trusler Pompeyin kanalizasiya sistemi ilə altı il əvvəl fəaliyyətə başlayarkən maraqlanmağa başladıqlarını bildirib. Şəhərdəki bütün tikintiləri tədqiq edən Trusler bəzi bölgələrin xüsusi tualetləri olan evlərlə dolu olduğunu, bəzi bölgələrdə isə ümumi sadə tualetlər kəşf etdiyini deyib.

### Təkmil su sistemi

Trusler yuxarı mərtəbəyə uzanan boruların Pompey xalqının gündəlik həyatı haqqında mühüm tapıntılar olduğunu bildirib. O: “Qurduqları müasir su sistemi Pompey xalqının atelyeləri və iş yerlərinin ikinci mərtəbəsində nələr etdiyi haqqında təəssürat oyadır”, - deyib.

İkinci mərtəbədən aşağıya uzanan boruların e.ə. I əsrdə tikilməyə başladığını düşünən Trusler bu yolla ikinci mərtəbədəki insanların küçədəki bulaqlardan su götürdüklərini bildirib. Trusler “Pompey məhv olmazdan əvvəl böyük inkişafa şahid olurdu” ifadəsini işlədib.

# İslam Dünyasında



## ABŞ-DA 2 MİNDƏN ÇOX MƏSCİD VAR

2011-ci ilin faktlarına əsasən, ABŞ-da 2 600 000 müsəlman və 2106 məscid var. Ən çox məscid olan ilk beş ştat isə ardıcıl olaraq bunlardır:

- Nyu-york – 257 məscid
- Kaliforniya – 246 məscid
- Texas – 166 məscid
- Florida – 118 məscid
- İllinoys və Nyu-Cersi – 109 məscid

Məscid tikintiləri 1920-30-cu illərdə artıb və 1952-ci ildə ABŞ-da 20-dən çox məscid var idi. ABŞ-dakı ilk məscidin 1915-ci ildə tikilməsinə baxmayaraq, ölkədə 1960-cı ilə qədər nisbətən az məscid inşa edilib. “Faith Communities Today”-in (FACT) apardığı araşdırmaya görə, ABŞ-dakı məscidlərin 87%-i son 30 il ərzində tikilib.

## AMERİKALI MÜSƏLMANLAR MƏLUMAT AZLIĞINDAN ŞİKAYƏTLƏNİRLƏR

Amerikalı müsəlmanlardan qarşılaşdıqları ən əsas problemin nə olduğu soruşulub. 19% müsəlman ayrı-seçkilik, 15% terrorist kimi qəbul edilmək, 13% ictimaiyyətin İslam haqqında məlumatının az olması, 12% isə eyni qəlibə aid edilmək cavabını verib. Sorğuda iştirak edən amerikalı müsəlmanların 76%-i dünya səviyyəsində islami ekstremizmdən çox və ya bir az narahat olduqlarını, 61%-i isə ABŞ-da islami ekstremizmin formalaşması ehtimalından təşvişə düşdüklərini bildiriblər.

Bu vəziyyətin bəzi müsəlman qadınların evdən çıxmamasına səbəb olduğu deyilir.

## HONKONQDA MÜSƏLMANLAR MƏSCİD İSTƏYİRLƏR

Honkonqda müsəlmanların sayı günbəgün artdığına görə, yeni məscidə ehtiyac olduğu açıqlanıb.

Şəhərdə müsəlmanların icma mərkəzi və müsəlman uşaqların daha yaxşı təhsil alması məqsədilə bir qurum təşkil edilməsini istəyirlər. Honkonqda hal-hazırda bu cür məqsədlərə xidmət edən rəsmi qurumların olmadığı bildirilir. Çin dilində danışmayan uşaqlar məktəbə gedə bilmədiyinə görə, buna ehtiyac olduğu qeyd edilir.

Hal-hazırda Honkonqda ancaq beş məscid var. Digər tərəfdən, Honkonqdakı müsəlman icmanın beş dəfə böyüdüyü bildirilib.

Honkonqdakı müsəlmanların sayının 200-250 min olduğu təxmin edilir.



# Keçən Ay



## QADIN KEŞİŞ KİLSƏYƏ GƏLƏNLƏRƏ QURAN OXUYUR

Norveçin paytaxtı Osloda Yeni il vaxtı kilsəyə gələn şagirdlərə hz. İsa ilə bağlı Quran ayələrini oxuyan qadın keşiş peşman olmadığını deyib.

Klara Voql Ellinqsrud kilsəsində kiçik şagirdlərə "Məryəm" surəsindən bəzi ayələri oxuduqda çox qarşı çıxmışdılar. Xristian din adamlarından şagirdlərin valideynlərinə, partiya liderlərindən təhsil nazirliyinə qədər bir çox adam bu hadisəyə əks-münasibət göstərmişdi.

Norveçli keşiş Quranda hz. İsanın doğulmasından bəhs edən ayələrin çox təsirli və gözəl olduğunu bildirib. Bu qədər ciddi əks-münasibət göstəriləcəyini əvvəlcədən təxmin etmədiyini vurğulayan Voql yenə də peşman olmadığını ifadə edib. Valideynlərin məsələ haqqında əvvəlcədən məlumat verilmədiyi ilə bağlı şikayətlərində haqlı olduqlarını deyən Klara Voql: "Ancaq yaxın ətrafımdan kilsədə Quran oxumağıma görə təbriklər gəlib. Hz. İsa haqqında Quranda məlumat olduğunu bilmək çox yaxşıdır. Bir olan Yaradana inanmaq materializm və sekulyarizmdən daha üstündür", - deyib.





## TAİLANDDA MÜSƏLMAN MALAYLAR ÜÇÜN TV KANAL

Tailand hökuməti ölkədəki müsəlmanlar üçün ilk televiziya kanalı layihəsini həyata keçirib.

Malay dilində fəaliyyət göstərən kanal haqqında məlumat verən layihənin rəhbəri Çamrun Den-udom yeni kanalın qurulma məqsədinin müsəlman malaylarla taylandlı buddistlər arasındakı anlayışın artmasına kömək etmək olduğunu bildirib.

Çamrun Den-udom növbəti il 24 saat fəaliyyət göstərəcək "TV Malayu" kanalının ilk mərhələdə gündə yarım saat xəbər yayımlayacağını qeyd edib.



Düşünən İnsan, Fevral 2013



# Axırzamanın Mühüm Şəxslərindən Olan Hz. Xızır Hal-Hazırda Fəaliyyətdədir

- *Hz. Xızır (ə.s) kimdir?*
- *Axırzamanda hansı vəzifələri var?*
- *Hz. Xızır (ə.s) dövrümüzdə hansı mühüm hadisələrdə fəaliyyət göstərir?*

Uca Allah Quranın bir çox ayəsində peyğəmbərlərinə və bəzi elçilərinə xüsusi elmlər öyrətdiyini bildirir. Qeyb elmi, lədün elmi, hikmət və təsirli nitq qabiliyyəti kimi üstün elmləri istədiyi qullarına bəxş edən Rəbbimiz bu rəhməti ilə həyatlarının hər anında olduğu kimi təbliğ zamanı da elçilərini dəstəkləyir.

Rəbbimizin peyğəmbərlərdən başqa elm bəxş etdiyi mübarək şəxslərdən biri də hz. Xızırdır (ə.s). Quranda adı bildirilmir, ancaq "Kəhf" surəsinin 65-ci ayəsində **"Onlar (orada) Öz dərgahımızdan mərhəmət bəxş etdiyimiz və Öz tərəfimizdən elm öyrətdiyimiz qullarımızdan birinə rast gəldilər"** şəklində bildirilən şəxsin hz. Xızır (ə.s) olduğu haqqında bütün əhli-sünnə alimləri həmfikirdir (doğrusunu Allah bilir). "Kəhf" surəsində (65-82-ci ayələrdə) hz. Xızır (ə.s) və Allah'ın ona öyrətdiyi lədün elmindən bəhs edilir. Hədislərdən ayələrdə bəhs edilən bu mübarək şəxsin hz. Xızır (ə.s) olduğu başa düşülür. Uca Allah'ın seçdiyi və müxtəlif elmlər lütf etdiyi bir qul olan hz. Xızır (ə.s) mühüm hadisələrdə və vaxtlarda ortaya çıxır.

## Hz. Xızır (ə.s) Uca Allah'ın xüsusi elmlər bəxş etdiyi bir quldur

Allah'ın Quranda elm sahibi kimi tanıtdığı hz. Xızır (ə.s) "Lədün" adlandırılan elmin sahibi olan mübarək şəxsdir. Allah'ın seçdiyi insanlara bəxş etdiyi xüsusi elm olan lədün elmi, başqa sözlə batin elminin sahibi olan şəxslər Allah'ın ilhamı ilə qeyb haqqında məlumatlanırlar. Rəbbimizin təqdir etdiyi qədər hadisələrin gedişatını




və gələcəkdəki nəticələrini əvvəlcədən bilir, buna əsasən hərəkət edirlər. Mövzu ilə əlaqədar bir ayə belədir:

**"Onlar (orada) Öz dərgahımızdan mərhəmət bəxş etdiyimiz və Öz tərəfimizdən elm öyrətdiyimiz qullarımızdan birinə rast gəldilər". (Kəhf surəsi, 65)**

Allah hz. Xızıra (ə.s) Öz dərgahından üstün elm bəxş etmişdir. Quranda hz. Musanın (ə.s) hz. Xızırla (ə.s) görüşdüyü, onunla birlikdə səyahət etdiyi və Rəbbimizin hz. Xızıra (ə.s) vəhy etdiyi elmdən faydalanmaq istədiyi hərtərəfli bildirilmişdir (Kəhf surəsi, 66). Hz. Xızır (ə.s) hz. Musa (ə.s) ilə birlikdə səyahəti qəbul etdikdən sonra hz. Musanın (ə.s) öyrənməsinə səbəb olan bir neçə hadisə baş verir. Hz. Musa (ə.s) hz. Xızırın (ə.s) lədün elmini bilmədiyinə görə, hz. Xızırın (ə.s) ilk baxışda səhv, qəribə görünən bəzi hərəkətlərini anlamayaraq ondan səbəblərini soruşmuş və öz fikirlərini bildirmişdir. Ancaq ayrılma vaxtı gəlib çatdıqda hz. Xızırdan (ə.s) etdiklərinin əsl səbəbini öyrəndikdə onun bunları müəyyən hikmətlə etdiyini anlamışdır (Kəhf surəsi, 78-82).

Quranda xəbər verilən "Kəhf" qissəsi ilə yanaşı, bəzi ayələrdə, hədislərdə, İslam alimlərinin müxtəlif izahlarında və İslam tarixi mənbələrində hz. Xızırın (ə.s) müəyyən dövrlərdə peyğəmbərlərə və Allah'ın əməlisaleh qullarına kömək edib dəstəklədiyinə dair bəzi məlumatlar var (doğrusunu Allah bilir).

## Hz. Xızır (ə.s) İslama zərər verəcək insanları və ya cisimləri zərərsizləşdirməklə mükəlləfdir

Hz. Xızırın (ə.s) bir xüsusiyyəti də İslama zərər verəcək insanları və ya cisimləri zərərsizləşdirməkdir.. Zərərsizləşdirəcəyi cisim bina, bölgə və ya ərazi ola bilər. Quranda hz. Xızırın (ə.s) hz. Musa (ə.s) ilə səfəri zamanı bu xüsusiyyətinə diqqət çəkilmişdir:

**Sonra hər ikisi yola düzəlib getdilər. Nəhayət (gəlib) gəmiyə mindikləri zaman (Xızır) onu deşdi. (Musa) dedi: "Sən gəmidə olanları suya qərq etmək üçünmü onu deşdin? Doğrusu, (günahı) böyük olan bir iş gördün". (Kəhf surəsi, 71)**

Bu hadisədə hz. Xızır (ə.s) bir gəmini deşir. Ancaq bu gəmini deşməsinin çox mühüm səbəbi var. Quranda hz. Xızırın (ə.s) bu hərəkətinin səbəbi açıqlanır:

**Gəmiyə gəlincə, o, dənizdə çalışan kasıb adamlara məxsus idi. Mənim onu korlamağımın səbəbi onların önündə hər bir gəmini zorla ələ keçirən hökmdarın olması idi. (Kəhf surəsi, 79)**

Quranda diqqət çəkilən bu hadisədə olduğu kimi, hz. Xızır (ə.s) cisimləri yararsız hala saldığı kimi, İslama və din əxlaqına

### *Hz. Xızır (ə.s) istədikdə zaman və məkandan çıxır və cildini dəyişir*

*Hz. Xızır (ə.s) uca Allah'dan lütf olaraq zaman və məkanın xaricinə çıxa bilir, istədikdə, bəzən insan, bəzən də ruh olur. Hz. Xızır (ə.s) bu xüsusiyyəti ilə mələklərə bənzəyir. Çünki eynilə mələklər kimi məkan ölçüsündən çıxır. Birdən dünya ölçüsündən çıxıb başqa məkan ölçüsünə keçir və ya çox sürətlə yenidən dünyanın məkan ölçüsünə daxil olur. İnsan cildinə girdikdə belə bir yerə girdikdə bir cilddə, həmin yerdən çıxdıqda fərqli fiziki görünüşdə ola bilir. Ani surətdə əşyaya və ya bitkiyə çevrilə bilir.*

*Quranda hz. Xızırın (ə.s) hz. Musanın (ə.s) dövründə də sarayda fəaliyyətdə olduğuna dair işarələr var. Məlum olduğu kimi, hz. Musa (ə.s) bir misirlini səhvən öldürmüş, firon və saray əhli də hz. Musanın (ə.s) cəzalandırılmasına və hətta öldürülməsinə qərar vermişdilər. Lakin bu söhbəti eşidən bir insan hz. Musanın (ə.s) yanına gəlib onu xəbərdar etmiş və hz. Musaya (ə.s) şəhərdən ayrılıb Misirdən uzaqlaşmasını bildirmişdir. Hz. Musanı (ə.s) xəbərdar edən və birdən hz. Musanın (ə.s) qarşısına çıxan bu şəxs hz. Xızırdır (ə.s) (doğrusunu Allah bilir). Bu mövzu ilə əlaqədar ayələr belədir:*

***Saraydan bir nəfər çaparaq gəlib dedi: "Ya Musa! Əyan-əşraf səni öldürmək barəsində məsləhət-məşvərət edirlər. Elə bu saat çıx get. Mən, həqiqətən, sənin yaxşılığını istəyənlərdənəm!" (Musa) qorxu içində (ətrafına) göz qoya-qoya oradan (şəhərdən) çıxıb: "Ey Rəbbim! Məni bu zalım tayfanın əlindən qurtar!" – dedi. (Qəsas surəsi, 20-21)***

*Hz. Xızır (ə.s) Quranda bildirildiyi kimi, bəzən hər hansı yerdə hər hansı şəxs kimi insanların qarşısına çıxır, salamlaşıb söhbət edir, ancaq insanlar hz. Xızırı (ə.s) tanımırlar. Çünki uca Allah'ın hz. Xızıra (ə.s) buyurduğu vəzifəyə görə, o, özünü insanlara tanıtmır.*

zərər verəcək insanı da zərərsizləşdirə bilər. Bu baxımdan, hz. Mehdinin (ə.s) qan axıtmayan xüsusiyyətinin tam əksidir. Hz. Mehdi (ə.s) uca Allah əmr etdiyi üçün qan tökülməsinə qəti qarşıdır, şəfqətli və mərhəmətlidir, yatan insanı oyatmaz. Ancaq hz. Xızır (ə.s) Allah'ın İslama qarşı çıxanları zərərsizləşdirmək əmrini tərəddüdsüz yerinə yetirir. **"Yenə yola düzəldilər. Nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqda (Xızır) onu öldürdü. (Musa) dedi: "Heç kəsi öldürməyən günahsız bir canamı qəsd etdin? Doğrusu, çox pis bir iş tutdun" (Kəhf surəsi, 74)** ayəsində bu həqiqət xəbər verilir. Hz. Xızır (ə.s) qeyri-adi hadisələri və işləri həyata keçirərkən daima zamanın içinə girib-çıxdığı və cildini dəyişdirdiyi üçün tapılması, yerinin müəyyən edilməsi də mümkün deyil.



### Heç kimə hiss etdirmədən müxtəlif qrupların tərkibində olur

Hz. Xızırın (ə.s) başqa xüsusiyyəti də hər dildə danışa bilməsidir. Ona görə, müxtəlif millətlərin içinə diqqət çəkmədən girə bilir. Bəzən müsəlman qrupun içində, bəzən də dövlət sistemində ola bilər. Belə ki, dövlətin sistemində fəaliyyət göstərdiyinə Quranda (Qasas surəsi, 20-21) diqqət çəkilmişdir. Ayələrdə hz. Musanın (ə.s) dövründə saraydan bir nəfərin çaparaq gəlməsi və hz. Musaya (ə.s) əyan-əşrəfin onu öldürməyə qərar verdiklərini bildirməsi hz. Xızırın (ə.s) fironun dərin dövlətinə mənsub şəxs olduğuna işarə edir (doğrusunu Allah bilir). Bu şəxsin hz. Musaya (ə.s) qaçmasını dedikdən sonra hz. Musanın (ə.s) bu şəxsi bir daha görməməsi də bu şəxsin hz. Xızır (ə.s) olduğuna işarə edir.

### Uca Allah axırzamanda hz. Xızıra (ə.s) çox mühüm vəzifələr vermişdir

Hz. Xızır (ə.s) hz. Mehdinin (ə.s) qarşısındakı maneələri aradan qaldıracaq

Bədiüzzaman Səid Nursi əsərlərində hz. Mehdinin (ə.s) SİYASƏT MEHDİSİ, SƏLTƏNƏT MEHDİSİ VƏ DİN İŞLƏRİ MEHDİSİ xüsusiyyətlərinin üçünə də eyni anda sahib olacağını və bu üç sahədə eyni anda mehdilik edəcəyini yazmışdır.Uca Allah hz. Xızıra (ə.s) çox mühüm vəzifələr tapşırır. Dövrümüzdə ən təcili məsələ Quran əxlaqının dünyaya hakim olmasıdır. Hz. Xızır (ə.s) bunun uca Allah'ın istədiyi kimi baş verməsi üçün axırzamanın mühüm şəxsləri olan hz. İsa (ə.s) və hz. Mehdiyə (ə.s) qarşı olanların mənəvi cəhətdən əzilməsində iştirak edir. Hz. İsanın (ə.s) düşmənlərinin ideoloji cəhətdən əzilməsini, hz. Mehdiyə (ə.s) qarşı olanların məğlub olmasını, əsas mövqelərdəki İslam düşmənlərinin və müsəlmanlara mane olanların məğlub edilməsini təmin edir.

## HAL-HAZIRDA DÜNYANI HZ. İSA (Ə.S), HZ. XIZIR (Ə.S) VƏ HZ. MEHDİ (Ə.S) İDARƏ EDİR

Dövrümüzdə hz. İsa (ə.s), hz. Xızır (ə.s) və hz. Mehdi (ə.s) birlikdə hərəkət edərək dünyanı İslam əxlaqının hakim olması üçün idarə edirlər. Hz. İsa (ə.s), hz. Xızır (ə.s) və hz. Mehdi (ə.s) müharibələrin və xüsusilə böyük hazırlıq görülən armaqedon müharibəsinin qarşısının alınmasına səbəb olublar. Dünyada armaqedon müharibəsinin olması üçün, əvvəlcə, İraqda müharibə başladılmış, sonra isə qanlı hadisələr və müharibələrin Yaxın Şərqə yayılması planlaşdırılmışdı. Lakin hz. İsanın (ə.s), hz. Mehdinin (ə.s) və hz. Xızırın (ə.s) cəhdləri ilə bu müharibə dayandırılmışdır. Dünyadakı hadisələr hal-hazırda hz. İsanın (ə.s) və hz. Mehdinin (ə.s) duası ilə istiqamətlənir.

Hz. Xızır (ə.s) da Türk-İslam Birliyinin qurulması üçün üzərinə böyük vəzifələr götürmüşdür. Bu birliyin qurulması üçün sosial hadisələri istiqamətləndirir, böyük hadisələr həyata keçirir, Müsəlmanların qarşısındakı bütün maneələri aradan qaldırır. Allah'ın izni ilə, müsəlmanların, hz. Mehdinin (ə.s) və hz. İsanın (ə.s) köməkçisi kimi vəzifəsini tam yerinə yetirir.





# Bir ayə, Bir açıqlama

**Sevdiyiniz şeylərdən (Allah yolunda) sərf etməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir. (Ali-İmran surəsi, 92)**

**Sevdiyiniz şeylərdən (Allah yolunda) sərf etməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir. (Ali-İmran surəsi, 92)**

Bu ayədə çox mühüm həqiqət bildirilmişdir. İnsanlara həqiqi mənada xeyir qazandıran ən əsas əxlaqi xüsusiyyətlərdən biri fədakarlıqdır. Əsl fədakarlıq insanın dəyər verdiyi şeyləri heç tərəddüdsüz, könüldən Allah rizası üçün sərf etməsidir.Sonsuz güc sahibi uca Rəbbimiz üçün lazım gəldikdə hər cür çətinlik və sıxıntını özünə rəva bilməsi, bu yolda şövq, əzm və iradə ilə əlindən gələni etməsidir. Öz mənafeyi ilə Allah rizası arasında seçim etməli olduqda öz mənfəətindən əl çəkib Allah üçün hər cür maddi-mənəvi fədakarlıq etməsidir.

Ancaq insanın nəfsi eqoistlik, xudbinlik kimi müxtəlif mənfi əxlaqi xüsusiyyətlərə meyilli yaradılmışdır. Nəfsini tərbiyə etmədikdə bu eqoist hisslər insanın bütün əxlaqına hakim ola bilər. Belə bir insan isə, əsasən, hər kəsdən çox özünü düşünür. Özü üçün daima hər şeyin ən yaxşısını, ən gözəlini, ən mükəmməlini istəyir. Özünə qarşı hər kəsin anlayışlı və fədakar olmasını gözləyir. Hər hansı çətinliklə qarşılaşdıqda ətrafındakı insanların onun üçün hər cür sıxıntı və riskə girməsini və öz mənfəətlərindən əl çəkməli olsalar da, ona dəstək olmasını gözləyir. Daxilən daima öz istək və mənfəətini qorumaq, öz rahatlığını təmin etmək istəyir. Əks təqdirdə isə mənafeyini qorumaq və özünə zərər gəlməsinin qarşısını almaq üçün dəyər verdiyi bir çox şeyi qurban verə bilər. Nəfsin bu zəif cəhətlərindən xilas olmaq isə ancaq imanı qavramaq və Quran əxlaqı ilə yaşamaqla mümkün olar. Quranda bildirilən həqiqətləri və Allah´ın əmr etdiyi üstün əxlaq anlayışını qavrayan insan həyatının hər anında fədakar davranar.

# ALLAH QORXUSU AĞILIN, DÜRÜSTLÜYÜN VƏ SEVGİNİN ƏSAS SƏBƏBİDİR

Allah qorxusu bir insanın həm imanının çox kəskin göstəricisi, həm də onun əbədi həyatını müəyyən edən mühüm xüsusiyyətdir. İnsan ancaq Allah'dan qorxub çəkinərsə, axirətdəki sonsuz cənnət həyatına qovuşmağa ümid bəsləyə bilər. Dünyada isə gözəl əxlaqa yiyələnmək ancaq Allah'dan qorxmaqla və Onun əmrlərinə qəti şəkildə riayət etməklə mümkündür.

Allah'a qovuşacağını bilən və hər əməlinin qarşılığı olduğunu dərk edən insanla kimsəyə hesab vermək məcburiyyətində olmadığını zənn edən insanın əməlləri arasında böyük fərq var. Allah qorxusu olmayan insan hər cür pisliyi edə, mənfəəti üçün hər cür əxlaqsızlığa göz yuma bilər. Məsələn, çox adi səbəbdən və ya dünyəvi mənfəət üçün gözünü belə qırpmadan adam öldürən insan bunu Allah'dan qorxub çəkinmədiyi üçün edər. Halbuki, Allah'dan qorxan insan nəinki bir adamı öldürməz, ən kiçik pisliyi belə etməz. Allah'dan qorxan insan sədaqət, vəfa, doğruluq, dürüstlük, səmimilik kimi xüsusiyyətlərə malikdir. Qurani-kərimin bir çox ayəsində bu üstün əxlaqi xüsusiyyətlərə malik möminlərdən bəhs edilir. Əslində, bütün insanların həsrətini çəkdiyi əxlaq modeli budur. Allah qorxusu olmadıqda bir insanda bu xüsusiyyətlərin əsl mənada və daimi olması mümkün deyil. Allah'dan qorxan insan isə

*Öz Rəbbindən qorxanları altından çaylar axan cənnət bagları gözləyir ki, onlar orada əbədi qalacaqlar. (Bu,) Allah'dan bir ziyafətdir. Allah'ın dərgahında olan (nemətlər) möminlər üçün daha xeyirlidir. (Ali-İmran surəsi, 198)*

mənfəətlərinə zidd olduqda belə Allah'dan və cəhənnəmə girib əzabla qarşılaşmaqdan qorxduğuna görə Quran əxlaqı ilə yaşayar.

## Möminlər ancaq Allah'ı razı salmağa çalışırlar

Mömin Allah'ın hər şeyin hakimi, yeganə güc və qüvvət sahibi olduğunu, hər şeyin Allah'ın istəyi ilə mövcud olub varlığını davam etdirdiyini bilir. Ona görə, əslində, heç bir güc və qüvvətə, təsirə malik olmayan yaradılmışların razılığını güdməyin faydasız olduğunu dərk edir. Bu dünyada Allah'dan qorxaraq Onun rizasını istəməsi insanı axirətdəki qorxunc əzabdan xilas edəcək əməldir:

**Allah'ın rizasını qazanmaq ardınca gedən şəxs Allah'ın qəzəbinə düçar olmuş şəxs kimi ola bilərmi? Onun yeri cəhənnəmdir. O yer necə də pisdir! (Ali-İmran surəsi, 162)**

Kiçik-böyük hər şeyin aşkara çıxarılacağı, əllərin və dərilərin şahidlik edəcəyi vaxt gələcək. Bundan qorxan mömin həyatını bu həqiqətə əsasən yönləndirər və Allah'ın rizasından əsla heç bir şərtdə əl çəkməz. Hz. Yusifin (ə.s) davranışı bu mövzuya çox gözəl nümunədir. Hz. Yusif (ə.s) ondan murad almaq istəyən qadının bütün hədə-qorxularına baxmayaraq namusunu qorumuş, Allah'ın rizasından əsla əl çəkməmiş, Onun hədlərini aşmaqdansa zindana girməyi üstün tutmuşdur. Allah bu üstün əxlaqı ayələrində belə bildirir:

**(Qadın) dedi: "Barəsində məni qınadığınız bax budur! Mən onu yoldan çıxartmağa çalışdım, o isə imtina etdi. Əgər əmrimi yerinə yetirməsə, əlbəttə ki, zindana atılacaq və zəlillərdən olacaqdır". (Yusif) dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən, mən onlara meyil edər və cahillərdən olaram". (Yusif surəsi, 32-33)**

## Mömin həmişə vicdanı ilə hərəkət edər

Allah'a qulluq edən şəxs nəfsinin istək və arzularına itaət etməz. Bilə-bilə belə davrandığı təqdirdə dünyada və axirətdə Allah'ın qəzəbinə gəlməkdən hər vəchlə çəkinər. Allah'ın əmrlərinə zidd davransa, aşağıdakı ayələrin hökmünün üzərində haqq olacağından qorxar. Allah ayələrində belə buyurur:

**Lakin zülm edənlər nadanlıqla nəfslərinin istəklərinə uydular. Allah'ın yoldan çıxartdıqlarını doğru yola kim sala bilər? Onlara kömək edə bilən kəslər də olmaz! (Rum surəsi, 29)**



*Nəfsini özünə tanrı edən və Allah'ın elmi sayəsində yoldan çıxartdığı, qulağını və qəlbini möhürlədiyi, gözünə də pərdə çəkdiyi kimsəni gördünmü? Allah'dan başqa kim onu doğru yola sala bilər?! Məgər düşünüb ibrət almırsınız? (Casiyə surəsi, 23)*

Şeytan və nəfsi insanı əvvəlcə Allah qorxusundan uzaqlaşdırmağa çalışır (Allah'ı tənzih edirik). Allah'dan qorxmağın lazımsız, hətta yanlış olduğunu, Allah sevgisinin və ürəyin təmiz olmasının əsas olduğunu təlqin edərək onun Allah'dan qorxub-çəkinməsinə mane olmaq istəyir. Halbuki, Quranı oxuyan şüurlu insan şeytanın bu cür təlqinlərinin yalan olduğunu, tamamilə azdırma, aldatma məqsədi daşıdığını asanlıqla görər. Çünki Allah möminlərə Ondan qorxmalarını Quranda çox açıq şəkildə əmr edir.

## Allah'dan qorxan insan bütün gözəl əxlaqi xüsusiyyətləri mənimsəyər

Allah'dan qorxan insan sədaqət, vəfa, doğruluq, dürüstlük, səmimiyyət kimi bütün gözəl əxlaqi xüsusiyyətləri mənimsəyir. Quranın bir çox ayəsində bu üstün əxlaqi xüsusiyyətlərə malik möminlərdən bəhs edilir. Əslində, bütün insanların həsrətini çəkdiyi insan modeli budur. Lakin Allah qorxusu olmadıqda bir insanda bu xüsusiyyətlərin əsl mənada və daimi olması mümkün deyil. Çünki Allah'dan qorxmayan bir insan öz mənfəətinə zidd olduqda Quran əxlaqı ilə deyil, mənfəətinə uyğun olan tərzdə davranır. Bu cür insanlar uca Allah'dan, Ona cavab verməkdən, cəhənnəmə girib pis əməllərinin cəzasını çəkməkdən qorxmadıqlarına görə, belə davranmalarına mane olan heç nə yoxdur.

## Allah'dan qorxan insan heç kim görmədikdə belə Allah'ın hədlərini qoruyur

Allah'dan çox qorxan insan insanlar arasında olduqda da, heç kimin görmədiyi yerdə də Allah'a qarşı çıxmaqdan çəkinir. Çünki bir pisliyi istər hamının içində, istərsə tək etsin, istər açıqlasın, istərsə gizlətsin, Allah'ın bunu bildiyini, Allah'ın aşkarı da, gizlini də, hətta gizlinin gizlisini də bildiyini və onu buna görə məsuliyyətə cəlb edəcəyini bilir. Səmimiliyini Allah'ın sınayacağını və imtahan məqsədilə ona müxtəlif fürsətlər, uyğun mühitlər yaradacağını da bilir. Allah bir ayədə möminlərə belə əmr etmişdir:

**Günahın aşkarından da, gizlisindən də əl çəkin! Şübhəsiz ki, günah qazananlar etdikləri əməllərə görə cəzalandırılacaqlar. (Ənam surəsi, 120)**



## *Allah'dan qorxan insan həmişə Allah'a üz tutar*

Allah'dan lazımınca qorxub çəkinən möminlər başlarına hər hansı müsibət gəldikdə və ya işlərində problem hiss etdikdə, sıxıntıya düşdükdə dərhal vicdanla düşünər, əməllərinə baxar və Allah'ın razı qalmadığı bir şey edib-etmədiklərini nəzərdən keçirərlər. Allah'dan bağışlanma diləyib Ona dua edərlər.

Allah'ın rizasını qazanmaq şövqü və eyni şəkildə Onun rizasını itirmək qorxusu onları çox həssas edir. Bu mövzuda da hz. Davudun (ə.s) davranışı möminlərə gözəl nümunədir. Quranda hz. Davudun (ə.s) Allah'a dərin hörməti bu mübarək peyğəmbərin başına gələn bir hadisədən bəhs edilərək belə xəbər verilir:

**Çəkişənlərin xəbəri sənə gəlib çatdımı? O zaman onlar divarı aşıb məbədə girdilər. Onlar Davudun yanına daxil olduqda (Davud) onlardan qorxdu. Onlar dedilər: "Qorxma! Biz iki iddiaçıyıq. Birimiz digərinin haqqını tapdalamışdır. Aramızda ədalətlə hökm ver, haqsızlıq etmə və bizə düz yolu göstər! Bu mənim qardaşımdır. Onun doxsan doqquz qoyunu, mənim isə bircə qoyunum vardır. "Onu mənə ver!"– dedi və mübahisədə mənə üstün gəldi". (Davud) dedi: "O sənin qoyununu öz qoyunlarına qatmaq istəməklə, sənə qarşı haqsızlıq etmişdir. Həqiqətən, şəriklərin çoxu bir-birinin haqqını tapdalayar. Yalnız iman gətirib yaxşı işlər görənlərdən başqa. Onlar isə çox azdırlar!" Davud Bizim onu sınağa çəkdiyimizi yəqinləşdirərək, Rəbbindən özünün bağışlanmasını dilədi və səcdəyə qapanıb tövbə etdi. Biz bunu ona bağışladıq. Həqiqətən, o, Bizə yaxın olanlardandır və onun üçün gözəl qayıdış yeri hazırlanmışdır. (Sad surəsi, 21-25)**

Ayələrdən göründüyü kimi, hz. Davud (ə.s) çox ədalətli qərar verdiyi və hökmünün doğruluğu açıq-aşkar bəlli olduğu halda, Allah qorxusu ilə Rəbbimizə üz tutmuş və yenə də bağışlanma diləmişdir. Şübhəsiz ki, səmimi Allah qorxusunu təqlid etmək mümkün deyil. Bu, ancaq Allah'ın qədrini layiqincə edənlərin Allah'a olan sevgilərinə və hörmətlərinə görə Rəbbimizin razılığını itirmək qorxusudur.



## Cənab Adnan Oktar Allah qorxusunun gözəl əxlaq qazandırdığından bəhs edir:

Adnan Oktar: Allah'a inanmamaq, Allah'ı sevməmək çox qorxunc sistemdir. Deyirlər ki, sadəcə Allah'ı sevsək olarmı? Xristian rahiblər Allah'ı sadəcə sevirlər, Allah'dan qorxmurlar, lakin bu onların əxlaqına ciddi şəkildə mənfi təsir edir. Məsələn, Yunanıstanda keşişlər toplanıb dua edirlər. Allah'dan qorxmadan təkcə Allah sevgisi ilə heç nə əldə edə bilməzsən. Allah qorxusu ağıl qazandırır. Allah qorxusu olmasa, ağlın gedər. Allah qorxusu dürüstlük qazandırır.

Allah'ı sevən insan mənfəətinə zidd olduqda belə doğru olanı edər... Ona görə, bəziləri hər cür əxlaqsızlığı edirlər. Məsələn, mağazanın içində gəlib qadını bıçaqlayırlar. Cinayətkar isə əmindir ki, heç kəs heç nə etməyəcək. Millət dayanıb baxır. "Nə olub?" - deyə içəri gir, qolunu bük, əlindən bıçağı al. Üstünə yerisən, heç nə edə bilməz, çünki səndən çəkinir. O, bıçaqlamaq istədiyi adama qəzəblənmişdir. Araya girib: "Allah'dan qorx", - deyər, nəsihət edərsən. "Özünə gəl, şeytandan Allah'a sığın, bu, Allah'ın bir quludur, dəli olubsan?" - deyərsən, inşaAllah. (25 iyul 2012-ci il, A9 TV)

Adnan Oktar: Allah qorxusunun olmamasını, Allah sevgisinin olmasını istəyirlər. Ancaq Allah sevgisi olsa, Allah'ı sevdiklərini sübut etmək üçün mühit olmaz. Allah qorxusu olmadıqda dinsizlik dünyaya hakim olar. Sevgi, şəfqət, mərhəmət, yaxşılıq, gözəllik və ağılın kökündə Allah qorxusu dayanır. Allah qorxusu olmadıqda insanlar ağlasığmaz zülmlər edər. "Mən Allah'ı sevirəm", - deyib hər cür anormal hərəkəti edər. Ancaq Allah qorxusu gözəl əxlaqın təməlidir. Əgər insan Allah'dan qorxursa, vəfalı, sədaqətli olur, etinasız, laqeyd olmur. Allah'dan qorxmursa, həmin insan üçün vəfa duyğusunun heç bir mənası qalmaz. "Allah'ı sevirəm", - deyər, heç nə etməz. Daima Allah'dan bir şey istəyər, ancaq Allah'a bir şey vermək istəməz. Təbii ki, Allah'ın heç nəyə ehtiyacı yoxdur, ancaq Allah üçün özündən bir şey fəda etmək istəməz. Malını Allah yolunda sərf etmək istəməz. Allah'ın ona mal verməsini istəyər, ancaq Allah üçün malını verməz. Allah qorxusu ilə insan malını Allah yolunda sərf edər. Allah qorxusu hikmətin və ağılın da təməlidir. Allah qorxusu olmasa, insanın ağlı gedər. Ona görə, Allah qorxusu böyük nemətdir. (22 iyul 2012-ci il, A9 TV)



## Allah qorxusu və Allah sevgisi bir-birindən ayrılmaz

İnsan Allah'ın sevgisini itirəcək pislikləri etməkdən Allah qorxusu ilə çəkinir. Məsələn, bir ayədə **"...Həqiqətən, Allah özünü bəyənənləri, lovğalıq edənləri sevmir!" (Nisa surəsi, 36)** buyurulur. Allah qorxusu olan insan Allah'ın sevgisini qazanmaq üçün lovğalanmaqdan çəkinir. Məhz bu səbəbdən Allah qorxusu və Allah sevgisi bir-birindən ayrılmaz.

Peyğəmbərimiz (s.ə.v) bir hədisdə Allah qorxusunun əhəmiyyətini belə bildirir:

***Muaz! Sənə hər daşın, ağacın və divarın yanında – harada olursan ol, Allah'dan qorxmağını, etdiyin hər günahdan sonra gizlisinə gizli, açığına da açıq şəkildə tövbə etməyini tövsiyə edirəm.*** (Ebu Nuyam el-İlye, Beyhaki, ez-Zühd'de açıklamışlardır; Huccetü'l İslam İmam Gazali, İhya'u Ulum'id-din, 2. cilt, Çeviri: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, s.793)

## Allah qorxusunu bir anda qazanmaq mümkündür

Allah qorxusunu əldə etmək üçün çox çətin mərhələlərdən keçmək lazım deyil. Əksinə, şüuru açıq, düşünən hər insan asanlıqla dərin Allah qorxusunu hiss edə bilər. Bir insanın əsl Allah qorxusunu qazanmaq üçün dərindən səmimi düşünməsi kifayətdir. İnsanın bu üstün əxlaqi xüsusiyyəti qazanması duasından, səmimiliyindən və vicdanını dinləməsindən asılıdır. Allah'dan layiqincə qorxaraq Onun qədrini haqqı ilə təqdir edən bir insan həm dünyada rahat yaşayar, həm də axirətdə Allah'ın razı qaldığı səmimi möminlərlə birlikdə nicat tapmağa ümid bəsləyər. Uca Rəbbimiz iman gətirən və Ondan səmimi qorxan qullarını belə müjdələyir:

**Öz Rəbbindən qorxanları altından çaylar axan cənnət bağları gözləyir ki, onlar orada əbədi qalacaqlar. (Bu,) Allah'dan bir ziyafətdir. Allah'ın dərgahında olan (nemətlər) möminlər üçün daha xeyirlidir. (Ali-İmran surəsi, 198)**

Allah'dan layiqincə qorxmaq Allah'ın böyüklüyünü, şanını və əzəmətini, üstün məqamını, sonsuz elm və qüdrətini, qulları üzərindəki qeyd-şərtsiz güc və hakimiyyətini, istədiyini istədiyi kimi həyata keçirəcəyini daima yadda saxlamaq və düşünməklə Allah'ın vədinə, xəbərdarlığına, haqq-hesab gününə, şiddətli cəzasına, sonsuz və qorxunc cəhənnəm əzabına tam yəqinliklə iman gətirməklə mümkündür. Bu iman güclü Allah qorxusuna vəsilə olur. Bu qorxu isə insanın bütün davranış və hərəkətlərini, danışığını Allah'ın razılığına uyğun yönləndirməsinə səbəb olur. Allah'dan qorxan şəxs Onun hədlərini cidd-cəhdlə qoruyur.







# HÜCEYRƏLƏRİN MÜXTƏLİF ORQANLARA ÇEVRİLMƏSİ DÜNYADAKI ƏN BÖYÜK MÖCÜZƏLƏRDƏN BİRİDİR

Ana və atadan gələn xromosomlar ana bətnində yeni mayalanmış yumurta hüceyrə formasındadır. Bu hüceyrə sürətlə bölünməyə başlayır və hüceyrələr bölündükcə müxtəlifləşir, yəni müxtəlif funksiyalar qazanır və orqanizmin hansı hissəsində olmalıdırlarsa, o hissəyə gedirlər. Bir-birinin eyni olan hüceyrələrdən ibarət ət yığını olmaq əvəzinə bir qismi, məsələn, göz hüceyrəsi məhz lazımi yerə, bir qismi isə ürəyi təşkil edərək döş qəfəsindəki yerinə gedir və ya dəri hüceyrəsi olub bütün bədəni örtür.

Hüceyrələrin proqramlanmış şəkildə müxtəlif zülallar hasil edib fərqli orqanlara çevrilməsinə tibbi dildə "müxtəlifləşmə" və ya "morfogenez"







deyilir. Hüceyrələr bu bölünmə mərhələsində çox dəqiqliklə və müştərək işləyirlər. Bəs bu qədər mükəmməl nizam və mütəşəkkillik necə baş verir? İsrailli biofizik dr. Li Spetner də buradakı möcüzəvi yaradılışa belə diqqət çəkir: "İnkişaf proqramı necə işləyir? Necə olur ki, bu qədər mükəmməldir? Gördüyümüz kimi, inkişaf iki yerə bölünən bircə hüceyrədən başlayır. İkisi daha sonra dörd yerə bölünür və beləcə davam edir. Bir mərhələdən sonra hüceyrələr müxtəlifləşir, daha doğrusu, xassələrini dəyişdirirlər. Nəticədə, hüceyrələrin bir qismi bir toxuma və ya orqana, digər hüceyrələr isə başqa orqanlara çevrilir. Bu hər dəfə, demək olar ki, eyni qüsursuzluqla baş verir. Bu, necə olur?" (Lee M. Spetner, Not By Chance, Shattering The Modern Theory of Evolution, The Judaica Press İnc., 1997, səh. 234)

Bu sualların cavabı çox açıqdır: canlılar qüsursuz şəkildə yaradılıblar və yaradılışlarındakı sənət və elm hər şeyin Rəbbi olan uca Allah'a aiddir. Bir ayədə belə xəbər verilir:

***O, göyləri və yeri haqq-ədalətlə xəlq etdi, sizə surət verdi, surətlərinizi də gözəl yaratdı. Axır dönüş də Onun hüzurunadır! (Təğabun surəsi, 3)***

- *Hüceyrələr haraya gedəcəklərini, hansı orqanın tərkib hissəsi olacaqlarını və getdikləri yerdə nə edəcəklərini necə bilirlər?*
- *Necə olur ki, eyni zamanda digər hüceyrələrlə bu qədər ahəngdar hərəkət edirlər?*





## Hər hüceyrə üçün zülallar fərqli hasil edilir

Bir rüşeym ana bətnində inkişaf edərkən onun gözlərini əmələ gətirəcək hüceyrələrdəki DNT-lər ancaq göz orqanına aid zülalları hasil edirlər. Eyni şəkildə, rüşeymin beynini əmələ gətirməklə məsul olan hüceyrələrin DNT-si ancaq beyinə aid zülalları hasil edirlər.

Burada mühüm cəhət budur: insanın istər sümük, istər qaraciyər, istərsə böyrək hüceyrəsi olsun, orqanizmin hər hansı hissəsindəki hüceyrələrin DNT-sində bütün orqanlara aid məlumatlar var. Lakin ancaq əlaqədar orqan üçün hasil ediləcək zülalların məlumatlarından istifadə edilir. Başqa sözlə, hər hüceyrədə insan orqanizminin hər orqanına aid zülal məlumatları var, ancaq bu zülalların hamısı hasil edilmir. Hansı orqan lazımdırsa, ona aid zülallar hazırlanır. Bunun üçün DNT-nin üzəri o orqan üçün lazım olmayan zülalların hasilatına mane olacaq şəkildə "histon" adlı xüsusi zülalla örtülür. Bu gün elm adamlarını maraqlandıran ən böyük sirlərdən biri isə hüceyrələrdəki histonların hansı genlərin üzərini örtüb hansıları açıq qoyacaqlarını necə bilməsidir. Çünki zülallar da cansız atomlardan təşkil olunmuş molekullardır. Aydındır ki, şüursuz və ağlı olmayan atomlar bu qədər möhtəşəm yaradılış möcüzəsini meydana gətirə bilməzlər.

## Müxtəlifləşmə və formalaşma əsnasında hüceyrələr arasındakı mütəşəkkillik ağlı və şüuru olmayan DNT molekulu tərəfindən təmin edilir

DNT nə ən son texnologiya ilə təchiz edilmiş laboratoriyalarda işləyən biokimyaçı, nə də saniyədə trilyonlarla əməliyyat yerinə yetirən super-kompüterdir. DNT karbon, fosfor, azot, hidrogen və oksigen kimi atomlardan ibarət molekuldur.

İndi düşünək və özümüzə sual verək: insan orqanizmindəki trilyonlarla hüceyrə bölünərək bir-birindən çoxalır. Ancaq hər hüceyrədəki fərqli gen müxtəlif vaxtlarda hərəkətə keçir və bu şəkildə hüceyrələrdə müxtəlifləşmə baş verir. Başqa sözlə, ilk hüceyrədən sonra bölünərək çoxalan hər hüceyrədə bütün genetik məlumatlar var, yəni hər hüceyrə, əslində, ürək əzələsi, dəri, eritrosit və ya orqanizmin başqa toxumasını meydana gətirmə qabiliyyətinə malikdir. Hər hüceyrədə həmin orqanizmə aid DNT olsa da, inkişafın fərqli mərhələlərində və müxtəlif orqanlarda ancaq bəzi genlər aktivdir. Məsələn, böyrəyin əmələgəlmə və funksiya şifrləri hər hüceyrədə var, ancaq sadəcə əlaqədar genlər inkişaf zamanı müəyyən vaxtlarda bu orqanda aktiv olur. Bənzər şəkildə müəyyən fermentlər – məsələn,

qlükoza 6 fosfat - əsasən, qaraciyərdə olur, lakin digər orqanların hər hüceyrəsində bu zülalın şifri var, ancaq əsla bu zülal həmin orqanlarda hasil edilməz. Göz hüceyrəsi bu fermenti hasil etməz, ancaq göz üçün lazım olanları hazırlayır. Sinir hüceyrələri beyin və orqanlar arasında gedib-gələn impuls və əmrləri daşımaq, qaraciyər hüceyrələri toksinləri zərərsizləşdirmək, yağ hüceyrələri arıqlıq dövründə bədəni qida ilə təmin etmək üçün ixtisaslaşırlar. Bunların heç biri səhvən mədəyə aid fermentləri hasil etməz. Bəs bu qüsursuz iş bölgüsünü kim edir?

Hüceyrələrə bölünmə və bölündükdən sonra müxtəlif sahələrdə ixtisaslaşma əmrini kim verir? Habelə, bütün hüceyrələr itaətkardırlar və necə olur ki, bu cür qüsursuz intizamla və mütəşəkkil işləyirlər? Bunların təsadüfən baş verən hadisələr nəticəsində meydana gəlmiş kortəbii sistemlər olmadığı açıq-aşkardır. Bütün bunlar göydən yerə qədər bütün işləri idarə edib yoluna qoyan uca Rəbbimizin izni ilə baş verir (Səcdə surəsi, 5).

## İnsanın yaradılışındakı qüsursuzluq hüceyrələrin sadəcə doğru vaxtda lazımi yerdə olması və doğru genləri aktivləşdirməsi ilə məhdudlaşmır

Hüceyrələr, eyni zamanda, həyatın hər mərhələsinə lazımi miqdarda olmalıdır. Bəzi "qulluq" genləri, demək olar ki, bütün hüceyrələrdə həmişə işləyir. Digər genlər bəzi hüceyrələrdə bir neçə saatdan az funksiyasını yerinə yetirir, sonra növbəti iş vaxtı üçün gözləmə mövqeyinə keçir. Məsələn, uşağa süd vermə dövründə süd hasilatı genlər tərəfindən sürətləndirilir. Mövcud məlumat uyğun vaxtda, uyğun miqdarda və uyğun yerdə hərəkətə keçirilir. DNT-dəki milyardlarla məlumatın bu qədər şüurlu, planlı, iradəli, ölçülü və ağıllı idarə edilməsi və istifadəsi təkamülçülərin təsadüf iddiaları ilə əsla açıqlana bilməz. Buna baxmayaraq, mikroskopik səviyyədə baş verən çox planlı və mütəşəkkil hadisələrin səbəbi kimi təsadüfləri görmək böyük məntiqsizlikdir. Təkamülçülər də hüceyrələrdəki bu müxtəlifləşmə və qüsursuz iş bölgüsünü açıqlaya bilmədiklərini qəbul edirlər. Təkamülçü mikrobiologiya professoru Əli Dəmirsoy belə etiraf edir:

"Mayalanmış yumurtadan çox fərqli quruluşa və funksiyaya malik bir çox hüceyrə qrupunun meydana gəlməsi indiyə qədər qaneedici şəkildə açıqlana bilməmişdir". (Ali Demirsoy, Kalıtım ve Evrim, Meteksan Yayınları, Ankara, 1984, s.158)

Bütün bu qeyri-adi hadisələrin təsadüflərin və ya hüceyrənin öz əsəri olmadığı aydındır. Bəs hüceyrədə meydana gələn bu hadisələri idarə edən, müəyyən məqsədə uyğun yaradan, milyardlarla məlumatı gözlə görünməyən kiçik yerə sığışdıran ağıl və güc kimə aiddir? Bu sualın yeganə cavabı var: uca Rəbbimiz sonsuz rəhməti ilə insanı hal-hazırkı formada gözəl surətdə yaratmış və istər bədənindəki, istərsə də ətrafındakı nizamlı sistemi insana nemət kimi bəxş etmişdir. Bir ayədə belə bildirilir:

***O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allah'ın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)***

# MADDƏ RUHUN İZAHIDIR

- Musiqi dinləyərkən ritmdən zövq alan, yemək yeyərkən dadından ləzzət alan və ya almayan, qarsısındakı insanı sevən, səfqət göstərən, öz mənliyini arasdıran, beynini laboratoriyada tədqiq edən, kəsflər edən, problemləri həll edən, uğurlarına görə sevinən, qərar verən, musiqi bəstələyən, kitab yazan varlıq, görəsən, süursuz təsadüflər nəticəsində meydana gələ bilərmi?
- Görəsən, hansı təsadüfi kimyəvi reaksiya insana gözəl davranmağı, incə düsüncəli olmağı, fədakarlıq etməyi öyrədə bilər?
- Görəsən, hansı təsadüfi hadisə nəticəsində insan öyrənmə, hafizəsində saxlama, qarsısındakını tərbiyə etmə, dövlətləri idarə etmə qabiliyyəti qazanmısdır?
- Təkamül nəzəriyyəçiləri bütün bu sualları cavablandıra bilməmis və (Allah'ı tənzih edirik) Allah'ın varlığını inkar etmək üçün irəli sürdükləri təkamül yalanı Allah'ın qeyri-adi əsərlərindən olan süur qarsısında yerlə yeksan olmusdur.





Təkamül tərəfdarları Darvinin yaşadığı dövrdə cavabsız qalmış şüur məsələsinə Darvindən sonra müxtəlif açıqlamalar gətirməyə çalışdılar. Fantastik ibtidai insanların bir-birləri ilə ünsiyyət qurmağa, ov ovlamağa və alət düzəltməyə başlayaraq beyinin təkamül keçirdiyini iddia etdilər. Beyinin inkişafı ilə dilin təkamül keçirdiyini, nitq qabiliyyətinin şüuru formalaşdırdığını və bu şəkildə insanı digər heyvanlardan fərqləndirən ən əsas fərqin ortaya çıxdığını müdafiə etdilər. Bu iddiaların heç biri təkamülə əsas ola bilmədi. Fosil qeydlərində bu iddiaların hər hansı birinə dəlil olan tapıntı yoxdur. Dil və şüur üzərində aparılan elmi fəaliyyət və təcrübələr bu cür inkişafın təsadüfən baş verməsinə dair bütün ehtimalları aradan qaldırdı. Darvinistlərin əllərində ancaq iddiaları var idi. Bu iddialar bütün təkamülçü kitablarda az-çox bənzər şəkildə uydurma ssenari ilə izah edilir, ancaq heç bir təkamülçü mənbədə buna dair elmi dəlil göstərilmirdi. Bu çarəsiz vəziyyətin yeganə izahı var: təkamül prosesi heç vaxt baş verməyib!

## Darvinistlər əbəs yerə insan şüurunun "təkamülünü" "elmi cümlələrlə" bəzəməyə çalışırlar

Darvinistlər "ortaya çıxma faktı" adlı amilin şüurun təkamülünə səbəb olduğunu müdafiə edirlər. Onların fikrincə, bir təsadüf heç gözlənməyən başqa bir şeyin meydana gəlməsinə yol aça bilər. Buna dair klassik nümunələri isə sudur. Buna əsasən, oksigen və hidrogen atomları öz-özlüyündə suya bənzər xüsusiyyət daşımır, ancaq müəyyən nisbətdə birləşdikdə əmələ gələn su molekulları əvvəlcədən təxmin edilməyən müxtəlif xüsusiyyətlər meydana gətirir. Təkamülçülər bunu insanın şüuru məsələsinə tətbiq etdilər və insan şüurunun meydana gəlməsinə beyinin kimyəvi quruluşunda baş verən təsadüfi dəyişiklik səbəb olduğunu iddia etdilər. Çarəsizlikdən heç cür təcrübədən keçirilə bilməyən, elmi dəlili olmayan belə bir iddianı şüur məsələsinə tətbiq etmək çıxılmaz vəziyyətdə olduqlarının açıq-aşkar göstəricisi idi.

Əlbəttə, bu, çox məntiqsizdir və texniki cəhətdən qeyri-mümkündür. Çünki hər kəs yaxşı bilir ki, insan şüuru su misalındakı kimi fiziki qanunlardan asılı hadisə deyil. İnsanın çiyələyi görünüşü, qoxusu və dadı ilə

təsəvvüründə canlandırması, ailəsinin və yaxınlarının görüntülərini və səslərini sanki yanında imiş kimi hiss etməsi, əlbəttə ki, beynindəki atomların daha əvvəl məlum olmayan bir şeyi meydana gətirmək üçün hərəkət etmələrinin nəticəsi deyil. Bütün bunları həqiqi imiş kimi qavraması insanın istəyidir və o əsnada düşündüyü şeydir. Fiziki xüsusiyyətə malik atomların müxtəlif formalarda birləşərək metafizik anlayış olan şüuru meydana gətirməsi qeyri-mümkündür. Bu, ancaq darvinistlərin xəyalıdır, çünki şüur təkamülün ağılsız, dəlilsiz iddiaları ilə qətiyyən açıqlana bilməz.

## Darvinistlər ruh sahibi olduqlarını dərk etmirlər

Müasir elm insan ağlının materialistlərin iddia etdikləri kimi beyin hüceyrələri arasındakı mübadilədən qaynaqlanmadığını təsdiqləmişdir. Başqa sözlə, insan orqanizmində bədənin öz funksiyalarına aid olmayan və fiziki xüsusiyyəti olmayan varlıq var. Materialist fəlsəfənin məhsulu olan və maddənin mütləq varlığından başqa heç bir açıqlamanı qəbul etməyən təkamül nəzəriyyəsi maddi varlığı olmayan insan ruhunu qətiyyən açıqlaya bilmir.

Burada bir həqiqəti yenidən xatırlatmaqda fayda var: təkamül nəzəriyyəsinin canlıların inkişafı ilə bağlı sübut edilmiş bircə iddiası, dəlili də yoxdur. Təkamül nəzəriyyəsi canlıların mənşəyi ilə bağlı ancaq uydurma ssenarilərə və saxta dəlillərə əl atmış, canlıların təkamül keçirmədiyini sübut edən elmi və paleontoloji faktları ört-basdır etməyə çalışmışdır. Bu yolla saxtalığı aşkar edilmiş fosillərdən təbliğat vasitəsi kimi istifadə etmiş, onları ara-keçid nümunələri kimi göstərərək insanları aldatmağa çalışmış və hətta bunun üçün saxtakarlığa əl atmışdır. Təkamülçülərin canlıların "təkamülü" ilə bağlı saysız-hesabsız ssenariləri və nağılları var. Ancaq bunların bircəsi belə elmi cəhətdən sübut edilməmişdir. Habelə, elm və texnologiya belə bir təkamül prosesinin qeyri-mümkün olduğunu açıq-aşkar elan etmişdir.

Təkamülün düşdüyü çıxılmaz vəziyyətlər arasında şüur məsələsinin xüsusi yeri var, çünki fiziki dəlillərlə varlığı açıqlana bilməyən bu mövzu ilə bağlı təkamülçülər heç bir ssenari uydura bilmirlər. Müasir texnologiyanın məhsulu olan qabaqcıl detektorlar və cihazlar materialistlərin beyində ağıl meydana gətirən bölgə və ya proses axtarışlarını boşa çıxarmışdır. İnsan ağlının materialist cəhətdən izah edilməsi qeyri-mümkündür.

Materialist düşüncə tərzinə malik insanlar şüuru qavraya bilmirlər. Bu insanlar ruh sahibi olduqlarını, şüurla hərəkət etdiklərini anlamırlar. Darvinizmi müdafiə etmələrinin yeganə səbəbi budur. Əgər şüur kimi olmayan qeyri-adi varlığın fərqinə varsalar, ruhlarının olduğunu anlasalar, darvinist olmaları qeyri-mümkündür. Bu, tamamilə metafizik həqiqətdir.

## Darvinistlər şüurun olduğunu həqiqətən hiss etsəydilər, ruhun təkamül keçirdiyini əsla iddia edə bilməzdilər

Darvinistlər reduksiya edilməz kompleksliyə malik insan gözünün təsadüfən təkamül keçirdiyini və işığı qavrama, yəni görmə xüsusiyyəti



qazandığını iddia edirlər. Rəngləri görən, ətrafındakıları qavrayan, bunları şərh edən insanı təsadüflərin, hüceyrədaxili reaksiyaların nəticəsi kimi görürlər. Gözdəki hüceyrələrin işığı qavradığını və bizə rəngli dünyanın göstərilməsi üçün bu mexanizmin və beyinin varlığının kafi olduğunu iddia edirlər. Ancaq bu hüceyrənin bir görüntünü görüb qavramaq üçün açılıb-örtülməsi, şüurla qərar verməsi, qısaca desək, ruhun əmrinə tabe olaraq hərəkət etməsi kimi fövqəltəbii hadisəni dərk edə bilmirlər.

Heç bir darvinist öz şüurunun olduğunu hiss etmir. Bunu hiss edərək darvinizmi müdafiə etməsi qeyri-mümkündür. Öz şüurunu hiss edərək sadəcə hüceyrə yığınından ibarət olduğunu, bakteriyadan törədiyini, hər varlığın şüursuz təsadüflərin əsəri olduğunu iddia etməsi mümkün deyil. Normal şüur və vicdanla bunu iddia edə bilməz. Darvinistlər içlərində görən, düşünən, dərk edən, şərh edən, sevən, sevinən, kədərlənən varlıq olduğunun fərqinə varmırlar. Fərqinə vardıqları an maddəni ilahlaşdırma düşüncəsindən dərhal əl çəkərlər.

Bir insanın yaşıl rəngi görməsi, qarşıdan gələn dostunu tanıması, onu gördüyünə görə sevinməsi elmin izah edəcəyi məsələ deyil. Bu, fizikanın fövqündə duran həqiqətdir və fiziki və ya maddi səbəb və məfhumla açıqlana bilməz. Öz şüurunun olduğunu dərk edən insan isə hər şeyin mütləq maddədən ibarət olduğunu iddia etməz. Məhz bu səbəbdən darvinistlər tamamilə fərqli düşüncə tərzi və qavrama formasına malikdirlər. Doğrusunu Allah bilir.

Allah Quranda bu cür insanların möcüzə görsələr belə, inanmayacaqlarını belə xəbər vermişdir:

**Əgər Biz mələkləri onlara göndərsəydik, ölülər onlarla danışsaydı və hər şeyi dəstə-dəstə toplayıb onların qarşısına qoysaydıq belə, Allah istəmədikcə, onlar iman gətirməzdilər. Lakin onların əksəriyyəti bilməz. (Ənam surəsi, 111)**

Normal düşünən insan asanlıqla öz içindəki şüuru qavrayıb dərk edən "mən"i görər, beynindən kənarda şüurunun olduğunu anlayar. Ancaq darvinistlər fərqli düşüncə tərzinə malik olduqlarına görə, həm maddədən kənar şüurun olduğunu, həm də özlərinə aid şüurun varlığını görə bilmirlər. Hər hansı darvinistdə bunu görmək, müşahidə etmək çox asandır.






## Şüursuz hadisələr şüur meydana gətirə bilməz

Təkamülçülər təsadüflərin, kortəbii, süursuz amillərin süuru necə meydana gətirdiyini açıqlamalıdırlar. Süursuz hadisələrin necə süurdan daha üstün davrandıqlarını, süurlu varlıqdan daha artıq süur əlaməti göstərdiyini izah etməlidirlər. Əgər iddia etdikləri təkamül prosesi doğrudursa, əvvəlcə elmi dəlillər gətirməli, sonra bütün məntiqsizliklərə açıqlama verməlidirlər. Təkamülçülər buna elmi açıqlama verə bilmirlər. Süursuz hadisələrin süur meydana gətirməsi kimi dilemmaya heç bir həll yolu tapa bilmirlər. Bu mövzu ilə əlaqədar yazılmıs təkamülçü kitablarda, minlərlə təkamülçü məqalədə və konfransda bunu açıqlaya bilməyiblər. Mütləq maddənin varlığına dair irəli sürdükləri nəzəriyyə maddədən kənardakı bu möcüzə qarsısında çıxılmaz vəziyyətdə qalıblar. Allah'ın varlığını inkar etmək üçün ortaya atılmıs bu yalan Allah'ın qeyri-adi əsəri olan süur qarsısında yerlə yeksan olmusdur. Allah bir ayədə belə buyurur:

**Onlar hiylə qurdular. Onların hiyləsi Allah dərgahında məlumdur. Onların hiyləsi ilə dağlar yerindən oynasa belə, yenə də Allah'ın dini qarsısında acizdir! (İbrahim surəsi, 46)**

Fərqli düsüncə sistemi darvinistləri maddədən asılı edir, maddədən basqa açıqlamaları inkar etmələrinə səbəb olur. Ancaq normal süura və sağlam düsüncə sisteminə malik insan dünyanın hisslərdən ibarət olduğunu və bu hissləri qavrayan "mən"in xarici aləmdəki isıqdan, beyindən, gözdən, qulaqdan, elektrik impulslarından fərqli sey olduğunu asanlıqla görə bilər. Xarici aləmdəki isıq gördüyümüz qırmızı rəngin səbəbi ola bilər, ancaq onun qırmızı olduğunu qavrayan, tanıyan, qırmızının nə olduğunu bilən "mən"in bir izahı olmalıdır. Normal düsünən insan bütün hisslərin ruha aid olduğunu dərhal anlayar. Çünki belə bir insan öz süurunun, yəni "mən" dediyi süurun fərqinə varır. Belə insan bütün materialist açıqlamaların məntiqsizliyini və əsassızlığını asanlıqla görür, darvinizmin nə qədər böyük yanılma olduğunun dərhal fərqinə varır.

# Cənab Adnan Oktar ruhun təkamüllə əsla açıqlana bilməyəcəyini izah edir

ADNAN OKTAR: *"Əgər bədənimizi yaradan şey beynimizdirsə..." - deyirlər, təbii ki, beyin yaratmır. Allah beyin adlı orqanı səbəb edir. Beyin bir ovuc ət və yağdan ibarət orqandır. Beyində heç nə yoxdur. Beyin sadəcə ağılın ixtiyarı getməməsi üçündür. Çünki qan damarları ilə dolu, yağlı ət kütləsidir. Sinir lifləri ilə doludur. Şüur, şüurun təkamülü, yəni ruhun təkamülü deyirlər, məhz bu mövzuya girdikdə məsələ bitir.*

*Ruh təkamül keçirəcək bir şey deyil, ələ götürüb müşahidə etmək, laboratoriyaya qoymaq mümkün deyil. Çünki sən şüura tabesən, şüur əsla sənə tabe olmur. Şüur səni idarə edir, sən şüuru idarə edə bilmirsən. Laboratoriyada bir şeyi tədqiq etdikdə şüurunun içində tədqiq edirsən. Şüur sənə daima nəzarət edir, sən şüura nəzarət etmirsən. Şüur görmə, eşitmə, toxunma, qoxu bilmə kimi mükəmməl hisslər toplusundan ibarət ruhdur.*

*Ruhun açıqlaması maddədir. Allah istədiyi üçün biz maddəyə inanır və var olduğunu qəbul edirik. Maddənin xarici aləmdəki varlığını görən, bilən yoxdur, ona görə, necə bir şey olduğunu da bilmirik. Elm adamları deyirlər ki, xarici dünyada var olduğunu təxmin etdiyimiz, inandığımız maddə qapqara və şəffafdır. Əgər işıq olmasa, onu heç görə bilmərik. İşıq olduqda isə şəffaf olduğunu deyirlər. Ona görə, dünyaya baxdıqda şüşə bloka baxan kimi baxarıq. Heç nə yoxdur. Şüşə kürəyə necə baxırsan? Dünyaya baxdıqda da şüşə kürəyə baxan kimi baxmış olarsan, heç nə yoxdur. Qapqaranlıq zülmətin içində şüşə kürə olduğunu təsəvvür edin, məhz o cürdür.*

*Şüurumuza gəlincə, Allah bizə onu belə göstərir. Təkamülçülər ruhu da təkamüllə açıqlamağa çalışırlar. Guya şüur, yəni ruh da təkamül keçirib.*

*Ruh sənə hakimdir, hər şeyi sənə ruh öyrədir. Ruha dərs keçməyə cəhd edirlər. Sən ruhun içindəki heçliksən. Heçlik kimi ruha dərs keçməyə çalışırsan. Sən ruhunda şifrlənmiş məlumatı deyirsən. Təkamül keçirməkdən danışırsan, ruhun şifrlənmiş şəkildə onu sənə dedirdir. Allah sənə söylədir. Sən ruhun əsirisən, heç nə edə bilməzsən.* (Cənab Adnan Oktarın 24 iyun, 2012-ci il tarixindəki A9 TV müsahibəsindən)



# XURAFATÇILARIN SƏHV DİN ANLAYIŞI VƏ BUNUN DİNƏ VERDİYİ ZƏRƏR

· Xurafatçıların insanların İslamdan çəkinməsinə səbəb olan səhv din bilgisinin mənbəyi nədir?
· Əsl İslam inancı ilə xurafatçı inancı arasındakı fərqlər hansılardır?



Xurafatçılıq Allah'ın Quranda bildirdiyi və Peyğəmbərimizin (s.ə.v) yaşadığı İslamdan fərqli anlayışı din kimi göstərməyə çalışan sistemdir. Dövrümüzdə xurafatçıların İslam anlayışı tamamilə fərqli inanca çevrilmişdir. Çünki xurafatçılıqda Quran və sünnə deyil, xurafat və bidətlər əsas götürülür. Ancaq xurafatçılar İslam adından danışırlar. Peyğəmbərimiz (s.ə.v) də axırzamanda xurafatçılığın bu cəhətinə diqqət çəkmiş və xurafatçılığın böyük təhlükə olduğunu hədislərində xəbər vermişdir:

*"ELM ALİMLƏRİN VƏFATI İLƏ ARADAN QALXACAQ. HEÇ BİR ALİM QALMAYACAQ. NƏHAYƏT İNSANLAR CAHİLLƏRİ RƏHBƏR SEÇƏCƏKLƏR. MƏSƏLƏLƏRİNİ ONLARA ÇATDIRA–CAQLAR. ONLAR ELMƏ ƏSASLANMADAN XALQA FƏTVA VERƏCƏKLƏR. HƏM ÖZLƏRİ AZACAQ, HƏM DƏ XALQI AZDIRACAQLAR"/ (Buhari, nr. 100, 7307; Müslim, İlim 13 (nr. 2673); Tırmizi, İlim 5 (nr. 2652))*

## Xurafatçılar İslam dininin təməli olan sevgi və sülhə düşməndirlər

Xurafatçılar hər cür gözəlliyə nifrətlə baxırlar. Çiçəyə, uşağa, heyvanlara, qısaca desək, Allah'ın yaratdığı hər gözəlliyə nifrət edirlər. Sevgisiz olduqlarına görə, daxilən qaranlıq düşüncəyə malikdirlər. Bu səbəbdən, mövhumatçı və anlayışsızdırlar. Belə ki, hər cür gözəllik və estetikaya, elm və incəsənətə, həmçinin sevinc və xoşbəxtliyə, hətta həyata belə qarşıdırlar. Sevginin olmadığı, nifrət və qəzəbin hakim olduğu, qadınlara və uşaqlara kin bəsləyən bu sistem şeytanın insanları dindən uzaqlaşdırmaq üçün meydana gətirdiyi bəladır. Ona görə də bu təfəkkürün hakim olduğu dünya cəhənnəm kimi cansıxıcı və qaranlıqdır. İnsanlar məhz bu xurafatçılıqdan çəkinirlər. Halbuki, gerçək İslam sevgini, dostluğu, qardaşlığı, xeyirxahlığı, mərhəməti və hər cür gözəl əxlaqi xüsusiyyəti əmr edir. Uca Allah bir ayədə İslam dininin bu üstün xüsusiyyətini belə xəbər verir:

**Onlardan əvvəl yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. Nəfsinin xəsisliyindən qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə qovuşanlardır! (Həşr surəsi, 9)**

## Xurafatçılar sevgidən uzaq yaşayırlar

Xurafatçı heç kimi sevmədiyi kimi özü də sevilmir, çünki hər kəs xurafatçının məntiq və düşüncə tərzinə nifrət edir. Onların hər biri digərinə nifrət edir. Ona görə, öz aralarında da daima ayrılıq və düşmənçilik vardır. Əsla birlik içində rahat və xoşbəxt yaşaya bilmirlər. Həqiqi İslama uyğun yaşayan müsəlmanlar isə sevgini, şəfqəti, dostluğu, qardaşlığı və həmçinin





azadlığı müdafiə edən, müasir insanlardır. Ətrafdakı insanlar tərəfindən üstün əxlaqına görə sevilən möminlər xurafatçılardan fərqli olaraq canlı sosial həyat sürürlər.

## Xurafatçılar incəsənət və estetika anlayışından məhrumdurlar

Xurafatçılar Quranda olmayan əmrləri İslam dininə daxil etməyə çalışırlar. Quranda öz xurafatlarına uyğun olmayan hökmləri və əmrləri inkar edirlər. Quranda bütün gözəlliklərin təriflənməsi, incəsənət və elmə təşviq edilməsi (Allah'ı tənzih edirik) onların qəzəbinə səbəb olur. Halbuki, gözəllik və estetikadan zövq almaq dərin imana malik insan xüsusiyyətidir. Allah insan ruhunda gözəlliyə həssaslıq hissi yaratmışdır. Ancaq bu estetika anlayışının üzə çıxması və inkişaf etməsi insanın imanı və ağlı ilə mütənasibdir. Möminlər bütün gözəllikləri Allah'ın yaratdığını bildiklərinə görə, bu gözəlliklərə heyran olurlar. Onlara bunları bəxş edən Allah'ın gücünü və sənətini layiqincə təqdir etməyə çalışırlar. Cənnət həsrəti də gözəlliklərdən zövq almaq hisslərini artırır. Allah'ın Quranda xəbər verdiyi cəhənnəmi düşünüb müqayisə etdikdə isə ruha zövq verən estetikanın dəyərini daha yaxşı dərk edirlər.

## Xurafatçılar qadına düşməndirlər

Xurafatçılar insanı dəyərləndirmir, heç bir canlıya əhəmiyyət vermirlər. Ruhlarında heç bir incəliyə, şəfqət və mərhəmətə yer yoxdur. Bütün bunların nəticəsində xurafatçı qadına da nifrət edir. Xurafatçıların başlıca xüsusiyyətlərindən biri də qadına düşmən olmalarıdır. Qadına üçüncü sinif varlıq kimi baxmaq xurafatçının əsas xüsusiyyətidir.

Allah qadınların qorunması, habelə onlara hörmət və sevginin bəslənilməsi üçün lazım olan hər şeyi Quranda bildirmişdir. Peyğəmbərimiz (s.ə.v) Quran hökmlərinə əsasən, qadınların tərəfində olmuş və onların zərər çəkmələrinin qarşısını almışdır. Peyğəmbərimizin (s.ə.v) həyat yoldaşlarına və səhabə xanımlara göstərdiyi gözəl münasibət bütün möminlər üçün gözəl nümunədir. Quranda qadınlara verilən dəyər bir ayədə belə bildirilir:



**Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır! (Rum surəsi, 21)**

## Xurafatçılar səmimiyyət və dürüstlükdən uzaqdırlar

**Dilinizin uydurduğu yalana əsasən: "Bu halaldır, o haramdır!"– deməyin, çünki Allah'a qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allah`a qarşı yalan uyduranlar nicat tapmazlar. (Nəhl surəsi, 116)**

Ayədə bildirildiyi kimi, xurafatçılar saxta hərəkətlərinin üstünü örtmək üçün həmişə Allah'ın adından yalan uydururlar. Əslində, xurafatçılar hər məsələdə yalan danışmağı vərdişə çeviriblər. Dini çətin göstərmək üçün dində olmayan məsələləri var kimi göstərir və ya dində olanları dində yox kimi tanıdırlar. Özlərini daha təqvalı göstərmək üçün halal olan şeyləri özlərinə və ətrafdakı insanlara haram edirlər. Halbuki, Allah halal və haram etdiyi hər şeyi Quranda bildirmiş, Peyğəmbərimizin (s.ə.v) hədislərində də bu mövzular açıqlanmışdır. Ona görə, gerçək İslam əxlaqı ilə yaşayan insanlar ancaq Qurandakı haram və halallara və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə tabedirlər. Belə ki, cidd-cəhdlə Allah'ın hədlərini qorumaları onları dürüst və səmimi edir. Xurafatçılardan fərqli olaraq, möminlər sözlərini sübut etmək üçün və insanlara səmimi olduqlarını göstərmək üçün səy göstərməyə ehtiyac duymurlar. Davranışlarının səmimi olduqlarını göstərəcəyini, Allah`ın izni ilə, bilirlər. Gerçək İslam anlayışına malik insanın hər bir hərəkətindən səmimi olduğu açıq-aşkar başa düşülür.

## Xurafatçılıq tarix boyu İslama ziyan vurmuşdur

Dünyada İslam adına ortaya çıxan, sevgi və mərhəmətdən uzaq, elm, incəsənət və gözəlliyə qarşı olan, müharibələr törədən, zülm edən, qan tökməyə meyilli müsəlman modeli bəzi insanların İslam dini haqqında yanlış qənaətə gəlməsinə səbəb olur. Onlar İslam adı altında ortaya çıxan xurafatçılığı İslam zənn edirlər. Bu qantökən vəhşi sistemin İslamla əlaqəsinin olmadığını, hətta İslama tamamilə zidd olduğunu bilmir, xurafatçıların

təqdim etdiyi və yaşadığı bu modeli İslam dini zənn edərək çəkinirlər. Gerçək İslam və müsəlmanlıq isə Allah'ın Quranda bildirdiyi, Peyğəmbərimizin (s.ə.v) təfsir etdiyi İslamdır. Ona görə, şəfqət və sevgi dolu olan, həmçinin elm və incəsənətə önəm verən, təmizliyə, nəzakətə dəyər verən İslam anlayışının ideal olduğunu ictimaiyyətə çatdırmaq çox vacibdir.

## İnsanların əsl İslam əxlaqını tanıması İslam əxlaqının yer üzünə yayılmasına səbəb olacaq

Xurafat üzündən bəzi insanlar İslam əxlaqının cəmiyyətə gətirəcəyi gözəlliyin fərqinə varmırlar. Halbuki, bu yanlış düşüncə tərzinin əksinə, uca Rəbbimizin Quranda bildirdiyi əxlaq təzyiq və məcburiyyətdən uzaq olan, sevgi, hörmət, anlayış və ədalətə əsaslanan üstün əxlaqdır. Bu üstün xüsusiyyətlərlə yaşamaq, Allah'ın iznilə, yaxın gələcəkdə azadlığın, dostluğun və sülhün dünyaya hakim olmasına, insanların iman sevinci ilə yaşamasına vəsilə olacaq.

Ayələrin işarə etdiyinə görə və Peyğəmbərimizin (s.ə.v) hədislərinə və böyük İslam alimlərinin sözlərinə əsasən, yaşadığımız dövr axırzamandır. Axırzamanın əziyyət, sıxıntı və çətinlik dolu günləri hz. İsanın (ə.s) və hz. Mehdinin (ə.s) vasitəsilə bu əsrdə sona çatacaq və dünya tamamilə yeni dövrə qədəm qoyacaq. Allah'ın varlığını və birliyini ən gözəl və hikmətli şəkildə təbliğ etmək və insanlara Qurandakı və əsri-səadət dövründəki İslamı tanıtmaq yaxın gələcəkdə qovuşacağımız aydın günlər üçün zəmin hazırlayır. Allah'dan bu məqaləni gözəlliklərə vəsilə etməsini və insanların Allah'ın dininə dəstə-dəstə girdiklərini görəcəyimiz günlərin tezliklə çatmasını diləyirik. Nurun yeganə sahibi olan Allah'ın bu müjdəsi Quranda belə xəbər verilir:

**Allah'ın köməyi və zəfər gəldiyi zaman; insanların dəstə-dəstə Allah'ın dininə daxil olduqlarını gördüyün zaman Rəbbini həmd-səna ilə təqdis et və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1-3)**



# Yüz illərlə saxladığımız halda, cücərməyən toxumlar nə üçün torpağa atıldıqda cücərir?

Toxumların yuxu dövrünün ilk mərhələsi qurutma ilə başlayır. Toxum toxumalardan suyu itirərək yuxuya gedir. Canlı bitki toxumlarında 90-95% su olduğu halda, yuxu dövründə olan toxumların toxumalarında 5% və ya ən çox 15% qədər su olur. Bu proses müəyyən ardıcıllıqla ilə genetik nəzarət altında baş verir. Bu prosesin həyata keçməsində əsas amil absiz turşusu adlandırılan hormondur. Bu hormon bitkinin böyüməsinə mane olan hormonlardan biridir. Bu hormona görə toxumda olan funksiyalar zəifləyir. Yuxu dövründə olan toxumun hüceyrələrində tənəffüs xeyli zəifləyir, qidalanma və inkişaf da baş vermir. (Françoise Brenckmann, Grains de Vie, s. 68)

On illərlə, hətta əsrlərlə yuxu dövründə qalan və sonra cücərən toxumlar var. Bu yuxu dövrü bitkilərin nəsillərini davam etdirmələri üçün olduqca vacibdir. Bitkilərin çətin şəraitlərdə həyatlarını davam etdirə bilmələri üçün belə bir mexanizmin varlığı zəruridir. (Advanced Plant Physiology, Malcolm B. Wilkins, s. 462)

Bəs bu qədər vacib olan xüsusiyyət necə ortaya çıxmışdır? Şərait pisləşdikdə bitki toxumları torpağın altında bundan necə xəbərdar olur və tədbir görürlər? Toxumun nə gözləri, nə saatı, nə də sinir sistemi var. Bu halda, bitki yuxu dövründən oyanma vaxtının gəldiyini necə hesablayır?





# ALLAH'IN VARLIĞI ELMİ CƏHƏTDƏN SÜBUT EDİLƏ BİLƏR

- *Allah'ın varlığı elmi cəhətdən necə sübut edilə bilər?*
- *Cənab Adnan Oktar (Allah'ı tənzih edirik) Allah'ı inkar etmək üçün elmi kütlələr tərəfindən illərlə istifadə edilən təkamül nəzəriyyəsini elmi cəhətdən necə çürütmüşdür?*

Oturduğunuz yerdən ətrafınıza bir baxın. Olduğunuz otaqdakı hər şeyin düzəldildiyini görəcəksiniz. Divarlar, döşəmə, tavan, oturduğunuz stul, əlinizdə tutduğunuz kitab, stolun üstündəki stəkan və daha bir çox şey... Bircə dənəsi belə öz-özünə əmələ gəlib otağınıza gəlməyib. Ən adi görünən xalça saçağını belə toxuyan birisi var, o saçaq oraya öz qərarı ilə təsadüfən gəlib yerləşməmişdir. Əlinə bir kitab alan insan da onun bir müəllif tərəfindən müəyyən məqsəd çərçivəsində yazıldığını bilir. Bu kitabın təsadüfən meydana gəldiyini əsla düşünməz. Eyni şəkildə, bir heykələ baxan insan onun heykəltəraş tərəfindən düzəldildiyinə heç şübhə etməz. Sənət əsərlərinin öz-özünə əmələ gəldiyini düşünmək bir yana, üst-üstə duran iki-üç kərpici belə mütləq planlı hərəkətlə düzən biri olduğunu heç kim inkar etməz. Ona görə, kiçik və ya böyük nizam olan hər yerdə mütləq həmin nizamın qurucusu və qoruyucusu olmalıdır. Bir gün birisi dəmir filizi və kömürün təsadüfən poladı, poladın da təsadüfən Eyfel qülləsini əmələ gətirdiyini iddia edərsə, bu insanın və ona inananların iddialarının yanlış olduğu dərhal başa düşülər.

Allah'ı inkar etməyin (Allah'ı tənzih edirik) yeganə yolu olan təkamül nəzəriyyəsinin iddiası da bundan fərqli deyil. Təkamül nəzəriyyəsinə əsasən, qeyri-üzvi molekullar təsadüfən amin turşularını, amin turşuları təsadüfən zülalları, zülallar da təsadüfən canlıları əmələ gətirib. Halbuki, canlıların təsadüfən öz-özünə əmələgəlmə ehtimalı Eyfel qülləsinin təsadüfən öz-özünə əmələgəlmə ehtimalından daha azdır. Çünki ən sadə hüceyrə belə insan əməyinin məhsulu olan hər hansı şeydən daha kompleksdir.



Təbiətdəki qeyri-adi ahəngi görüb bu müvazinətin təsadüfən və ya kortəbii şəkildə meydana gəldiyini necə düşünmək olar? Hər guşəsində Yaradanın qüdrətinin dəlilləri olan kainatın öz-özünə əmələ gəldiyini söyləmək ən məntiqsiz iddiadır.

Bədənimizdən başlayıb qeyri-adi böyüklüyə malik kainatın ən ucqar nöqtələrinə qədər mövcud olan müvazinətin bir sahibi olmalıdır. O, kainatın içindəki hər hansı maddi varlıq ola bilməz. Çünki O, bütün kainatdan əvvəl mövcud olan və bütün kainatı sonradan yaratmış iradə olmalıdır. Bu iradə hər şeyin Ondan varlığını qazandığı, Özü isə əzəli və əbədi olan uca Allah'dır.

## Allah'ın varlığı hər yeri əhatə etmişdir

Varlığını ağılla bildiyimiz Yaradanı bizə din tanıdır. Bizə din yolu ilə bildirdiyi kimi, O, göyləri və yeri yoxdan yaradan, Rəhman və Rəhim olan Allah'dır.

İnsanların bir qismi isə bu həqiqətdən xəbərsiz yaşayırlar. Halbuki, bu həqiqəti qavrayacaq qədər məntiqlidirlər. Bir mənzərə rəsmi gördükdə, əvvəlcə, onun kim tərəfindən çəkildiyini öyrənmək istəyirlər. Daha sonra sənətkarını əsərinə görə tərifləyirlər. Lakin üzlərini çevirib baxdıqları hər yerdə o rəsmin əslləri ilə qarşılaşdıqları halda, bütün bu gözəlliklərin yeganə sahibi olan Allah'ın varlığını görməməzliyə vururlar.

Halbuki, Allah'ın varlığını anlamaq üçün uzun tədqiqata ehtiyac yoxdur. Belə ki, insan doğulduğu andan etibarən bir otaqda yaşasa da, təkcə o otaqdakı dəlillər Allah'ın varlığını qavramaq üçün kifayətdir. İnsanın bədəni cild-cild ensiklopediyaya sığmayacaq qədər çox yaradılış dəlili ilə doludur. Sadəcə bir neçə dəqiqə vicdanla düşünmək belə Allah'ın varlığını anlamaq üçün kifayətdir. Mövcud nizam Allah tərəfindən qorunur və davam etdirilir.

Təkcə insan orqanizmi haqqında düşünməklə kifayətlənmək olmaz. Dünyanın hər $mm^2$-də insanın gördüyü və görmədiyi həyat hökm sürür. Təkhüceyrəli orqanizmlərdən bitkilərə, həşəratlardan dəniz canlılarına, quşlardan sürünənlərə qədər bütün canlılar dünyanı bürüyüblər. Əlinizə bir ovuc torpaq alıb tədqiq etdikdə içində bir-birindən tamamilə fərqli xüsusiyyətlərə malik növbənöv canlı olduğunu görərsiniz. Eyni şey nəfəs aldığımız havaya da aiddir. Hətta dərinizin üstündə bəlkə adını heç eşitmədiyiniz canlılar yaşayır. Bütün canlıların bağırsaqlarında həzm prosesinə kömək edən milyonlarla bakteriya və təkhüceyrəli canlı yaşayır. Dünyadakı heyvanların sayı insanların sayından qat-qat çoxdur. Bunlara bitkilər aləmini də əlavə etsək, dünyanın hər yerində həyat olduğunu anlayarıq. Milyonlarla $km^2$-lik geniş sahəyə yayılmış bu canlıların hər birinin özünəməxsus orqanizmi, həyat tərzi, ekoloji sistemə faydaları kimi xüsusiyyətləri var. Bütün bunların səbəbsiz, məqsədsiz və təsadüfən mövcud olduğunu iddia etmək ağıla zidd cəfəngiyatdan başqa bir şey deyil. Çünki heç bir canlı öz qərarı və cəhdi ilə yer üzünə gəlməyib. Təsadüf isə heç nəyi meydana gətirə bilməz.

## Allah'ın varlığı və böyüklüyü kainatdakı dəlillərlə özünü göstərir

Allah'ın varlığını və böyüklüyünü vicdanla qəbul etməyən bircə insan da

yoxdur. Allah insanların Öz böyüklüyünü qavraması üçün kainatdakı nizamı qeyri-adi xüsusiyyətlərlə birlikdə yaratmışdır.

Quranda Allah'ın yaratdığı bu sistemdən bəhs edilərkən **"... Allah'ın hər şeyə qadir olduğunu, Allah'ın hər şeyi elm ilə ehtiva etdiyini biləsiniz deyə..." (Talaq surəsi, 12)** deyilir. Bu sistemin çox incəlikləri var və Allah bircə şeyin içində istədiyi qədər təfərrüat yaradır.

Biz yatarkən, oturarkən, yeriyərkən heç ağlımıza gəlməsə də, Allah kainatdakı bütün sistemləri bir-bir işlədib idarə edir. Həyatımızın davam etməsi üçün meydana gələn proseslərin hər biri Allah'ın nəzarətindədir. Kiçik bir addım atmağımız belə Yerin cazibə qüvvəsindən skelet sistemimizə, sinir və əzələ sistemimizdən beynimizə və ürəyimizə, hətta Yerin fırlanma sürətinə qədər hər şeyin Allah tərəfindən incə-incə nizamlanmasına bağlıdır. Dünyanın və bütün kainatın varlığını təsadüflərlə əlaqələndirmək isə çox böyük yanılmadır. Əslində, dünyadakı və kainatdakı hər sistem təsadüfə yer olmadığının və Allah'ın varlığının açıq-aşkar dəlilidir. Yer Günəşin ətrafında elə orbitdə fırlanır ki, hər 29 sm-dən bir 2.8 mm içəriyə doğru orbit xəttini əyir. Əgər bu əyilmə 0.3 mm az və ya çox olsaydı, yer üzündəki canlılar ya donaraq, ya da qovrularaq ölərdilər. Kiçik bir topun belə 1mm yolundan çıxmadan eyni orbitdə fırlanması qeyri-mümkündür, nəhəng kütləyə malik Yer kürəsi isə orbitindən çıxmadan hərəkətinə davam edir. **"...Allah hər şey üçün bir ölçü təyin etmişdir" (Talaq surəsi, 3)** ayəsində bildirildiyi kimi, ətrafımızda gördüyümüz möhtəşəm nizam Allah'ın çox nəhəng sistemləri millimetrdən asılı olan müvazinətlərlə qoruması sayəsində varlığını davam etdirir.

İnsanların bəzisi Allah'ın varlığına inansalar da, Allah'ın hər şeyi yaradıb, sonra öz öhdəsinə buraxdığını, sonra bu nizamın öz-özünə davam etdiyini düşünürlər. Lakin kainatın hər yerində hər an meydana gələn bütün hadisələr uca Rəbbimiz Allah'ın izni ilə, Onun elmi və nəzarəti ilə baş verir.

Cənab Adnan Oktar Allah'ın varlığının mübahisəsiz dəlillərinin Allah'ın varlığını elmi cəhətdən sübut etdiyindən bəhs edir:



ADNAN OKTAR: *Baxın, bu saat harada düzəldilib? Fabrikdə düzəldilib və onu düzəldən var, elə deyilmi? Elmi cəhətdən bunun əksini iddia edirsənmi? Tam olaraq belə olduğunu deyirsən. Bu qəti qanundur. Fabrik düzəltmir, Allah beynimizdə yaradır. İndi nə edəcəksən? Nə oldu, Allah'ın varlığının elmi cəhətdən izah edilə bilinmədiyini deyirdin? Fabrikdə düzəldildiyinə and içir, tam həqiqət olduğunu deyirsən. Mən də sənə tam olaraq beynimizin içində Allah tərəfindən yaradıldığını sübut edirəm. Xarici dünya başqa, oradakı əsli ilə heç təmasda olmuruq. Biz bilmirik, maddənin xarici dünyada mövcud olduğuna sadəcə iman gətiririk. Heç kim qol saatının xarici aləmdəki*



*görünüşünü bilmir. İndiyə qədər, peyğəmbərlər də daxil olmaqla, heç kim görməyib. Bircə Allah bilir. Biz xarici dünyadakı varlığına sadəcə iman gətiririk, ancaq bilmirik. Ancaq sən fabrikdə düzəldildiyinə and içirsən. Bunun elmi həqiqət olduğunu deyirsən. "Yaradan var", - deyirsən, elə deyilmi? "Düzəldən var", - deyirsən. Bax, Allah'ın varlığını bu yolla artıq sən özün sübut etdin. Elmi cəhətdən sübut etdin. Nə oldu, Allah'ın varlığını elmi cəhətdən sübut etmək olmurdu?*

*Hər şey beynimizin içində yaradılır. Məsələn, bu təsbehin quruluşu. Birisi bunun təsadüfən olduğunu desə, heç kim qəbul etməz. "Birisi tərəfindən düzəldilib, bu, elmi həqiqətdir", - deyər. "Birisi tərəfindən düzəldildi", - deyirsənsə, Allah'ın varlığını qəbul etmiş olursan. Çünki bunu sənin beynində Allah yaradır. (28 may 2012-ci il, A9 TV)*

## Hər yerə hakim olan, möhtəşəm sistemi yaradan, onu fasiləsiz qoruyan Allah'dır

Siz bu məqaləni oxuyarkən xəbəriniz belə olmadan kainatın hər guşəsində saysız-hesabsız proses baş verir. Bunlardan bir neçəsini sadalayaq:

- Hər saniyə Yerə 16 milyon ton su enir və həmin miqdarda su yerdən buxarlanaraq havaya qarışır. Buxarlanma sadəcə dəniz və okeanlarda deyil, göllər və çaylarda, bitkilərdə, torpağın səthindəki sularda, hətta yerin dərinliklərində belə baş verir. Siz bu abzası oxuyarkən ən az 2-3 saniyə keçdi və hal-hazırda, Allah'ın izni ilə, 16x3=48 milyon ton su yerə endi və eyni anda bu qədər su buxarlanıb yenidən havaya qarışdı.
- Hər saniyə təqribən 100 şimşək çaxır. Son bir saatda Yerin müxtəlif bölgələrində 36.000 şimşək Allah'ın nəzarətində çaxdı. Hər şimşək çaxdıqda trilyonlarla ton azot dioksid molekulu hasil olaraq atmosferdəki 78% azot nisbətini qorudu. Torpaq ucu-bucağı olmayan fabrik kimi içində yaşayan trilyonlarla bakteriya ilə fasiləsiz həyata keçirdiyi azot hasilatına hal-hazırda da davam edir.
- Siz hal-hazırda bu cümləni oxuyarkən Günəş 564 milyon ton hidrogeni 560 milyon ton heliuma, artıq qalan 4 milyon ton hidrogeni də enerjiyə çevirdi. Bu proses nəticəsində milyonlarla atom bombasının partlayışına bərabər gücdə enerji, işıq və radiasiya əmələ gəldi. Bizə sadəcə xoş istilik və işıq verən Günəş, əslində, qıpqırmızı qaz buludlarından ibarət dərin bir quyudur. Qaynayan səthindən milyonlarla kilometr uzağa fışqıran nəhəng alov girdabları dibdən səthə doğru yüksələn nəhəng burulğanlardan ibarətdir və bir saniyədə sivilizasiyanın başlanğıcından bəri



başəriyyətin istifadə etdiyindən də artıq miqdarda enerji hasil edir. Biz isə bu enerjinin 2 milyardda 1 hissəsindən istifadə edirik. Saniyələr, saatlar keçir, Günəş fasiləsiz enerji verir. Günəşin bütün zərərli, öldürücü şüaları bizə çatmazdan əvvəl atmosfer və Yerin maqnit sahəsi tərəfindən süzülür. Günəş bizim həyatımız üçün xüsusi yaradılmış işıq mənbəyidir. Allah Quranda bunun hikmətini belə açıqlayır:

**Göyləri və yeri yaradan, göydən yağmur endirən, o yağmurla sizin üçün ruzi olaraq meyvələr yetişdirən, əmri ilə dənizdə üzmək üçün gəmiləri sizə tabe və çayları sizə ram edən Allah'dır! Daim hərəkət edən Günəşi və Ayı sizə tabe etdi; gecəni və gündüzü sizə ram etdi. (Allah) sizə istədiyiniz şeylərin hamısından vermişdir. Əgər Allah'ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, həm də çox nankordur. (İbrahim surəsi, 32-34)**

Unutmaq olmaz ki, bəşəriyyət tarixinin əvvəlindən bu günə qədər milyardlarla insan yaşamışdır. Yəni Allah milyardlarla cüt göz, fərqli barmaq izi, göz toxuması, insan tipi yaratmışdır və əgər istəyərsə, bu insanlardan sonsuz sayda daha artıq yarada bilər. Ayədə belə deyilir: **"... O, xəlq etdiklərindən istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir". (Fatir surəsi, 1)**

Allah insanın heç bilmədiyi və məhdud ağlı ilə anlaya bilmədiyi bir çox şeyi yaratmağa qadirdir. Dünyada bizə verdiyi ucsuz-bucaqsız hər şeyin xəzinələri uca Rəbbimizin - hər şeyin Yaradanı olan üstün güc sahibi Allah'ın dərgahındadır.

Kainatın hər hissəsi Allah'ın böyüklüyünü əks etdirir. Allah bütün üstün sifətlərin və gözəl isimlərin yeganə sahibidir. Bu məqalədə bəhs etdiklərimiz isə Allah'ın gözəl isimlərinin kainatda gördüyümüz bir neçə nümunəsidir. Allah'ın elmi, ağlı, gücü, qüdrəti, rəhməti, şəfqəti, fəzli, ehsanı sonsuzdur. Hər insan isə ağlı və vicdanı ölçüsündə Allah'ın böyüklüyünü qavramaq üçün səy göstərməlidir.



# XOCALI SOYQIRIMINDAN 21 İL ÖTÜR



Xocalı soyqırımı — 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən etnik azərbaycanlılara qarşı baş vermiş soyqırım.

**Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı Motoatıcı Alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü.

ADNAN OKTAR: ***"Bu qətliamda əli olanların hamısı, təqsirlərinin cəzası nədirsə, ona uyğun cəzalandırılmalıdırlar. Qatillər müəyyənləşdirilib cinayətləri müqabilində cəza verilməlidir".***





# İslam əxlaqında sevgi və keyfiyyət anlayışı

Dövrümüzdə bir çox müsəlman ölkəsində həqiqi İslam anlayışından uzaq, bayağı həyat tərzi var. Bu bayağılıq sadəcə bəzi nəzakət qaydaları və nəzakətdən uzaq davranışlar demək deyil. Bayağılıq Allah'ın qədrini layiqincə təqdir etməməkdən, həqiqi Quran əxlaqı ilə yaşamamaqdan qaynaqlanan yanlış həyat tərzidir. Bu yanlış həyat tərzi insanın düşüncə tərzindən zövqünə, həyatındakı hədəflərindən gözəllik, estetika və zarafat anlayışına, söhbət mövzularından mimikalarına qədər bütün həyatını əhatə edən geniş anlayışdır. İnternetdəki axtarış saytlarının şəkillər bölməsinə ingiliscə müsəlman sözü yazdıqda bayraq yandıran, bir-birinə hücum edən, üzlərində nifrət dolu qorxunc ifadə ilə bağıran insanların şəkilləri çıxır. Dünyada müsəlmanlar haqqında bu cür yanlış təsəvvür oyatmağa çalışırlar.

Dünyadakı yanlış İslam anlayışının səbəbi Quranda bildirilən və Peyğəmbərimizin (s.ə.v) yaşadığı həqiqi İslama tabe olunmamasıdır. Bu, bir çox insanın bildiyi, ancaq tam anlamadığı vəziyyətdir. Çünki bəzi insanlar dinimizdə olmayan xurafatları varmış kimi göstərirlər. Bir çox müsəlman ölkəsində xurafatlarla dolu, sevgidən, anlayışdan, gözəllikdən, estetikadan, yəni keyfiyyətdən uzaq İslam anlayışı hakimdir və hətta bu qəbul edilir.

Bu yanlış örnəklərə görə, bir çox insanın ağlına müsəlman dedikdə sərt, sevgisiz, bədbin, incəsənət anlayışından məhrum, elmə qarşı olan, zarafat anlayışı olmayan, geyinməyi bilməyən, musiqidən



zövq almayan, nəzakətsiz, şəfqətsiz insanlar gəlir. Əlbəttə, bu, çox böyük xətadır və fərqində olmadan bir çox insana zərər verir, İslamdan uzaqlaşdırır.

## Səmimi müsəlman mənəvi cəhətdən də kübardır

Bəzi insanların keyfiyyət anlayışı Allah'ın Quranda diqqət çəkdiyi keyfiyyətdən fərqlidir. Bu insanların keyfiyyət anlayışı bahalı avtomobil, markalı geyimlər, çox gözəl ev və yaxşı təhsillə məhdudlaşır. Əlbəttə, Allah'ın bəxş etdiyi nemət kimi bu sadalananlar gözəl və estetik görünüşə səbəb ola bilər. Lakin əsl keyfiyyət ruhən olmalıdır.

Allah insana bütün digər varlıqlardan fərqli olaraq ruh vermişdir. Ona görə də insanın mənəviyyatındakı zənginlik çox böyük təsir oyadır. Bu zəngin mənəviyyat insanın keyfiyyətini artırır. İnsanın mənəvi aləmi nə qədər gözəldirsə, o qədər kübar olur. Mənəvi gözəllik isə Allah'ın şanını layiqincə təqdir edən, həmişə yüksək əxlaqla davranan səmimi müsəlmanda üzə çıxır. Allah qorxusu və Allah sevgisi ilə hərəkət etdiyinə görə, rəftarında və danışığında həmişə vicdanı, ağlı və iradəsi ilə hərəkət edən səmimi müsəlman Allah'ın Quranda əmr etdiyi kimi ən gözəl sözü söyləyir, ən gözəl şəkildə davranır. Nəticədə də elə bir insana çevrilir ki, hamı onunla birlikdə olmağı xoşlayır, ətrafına rahatlıq və sevinc verir.
Belə bir insan, eyni zamanda, hər şəraitdə nəfsi istəklərinin əvəzinə Allah'ın rizasına uyğun olanı seçir. Öz rahatlığının, ehtiyac və istəklərinin yerinə Allah rizası üçün həmişə başqalarının rahatlığını, ehtiyaclarını və istəklərini ön planda tutur. Bunun üçün fədakarlıq edir, səy göstərir, lakin qarşılığını ancaq Allah'dan gözləyir. Bu üstün əxlaq insanı əsalətli və mənəvi cəhətdən keyfiyyətli edir. Belə insanlar heyranedici, yüksək əxlaqa, maddi yolla heç cür əldə edilə bilməyən üstün şəxsiyyətə malik olurlar.

Qəlbən daima Allah ilə birlikdə olan və axirətdəki sonsuz cənnət həyatını qazanmaq şövqü ilə yaşayan mömin Allah'ın bir neməti olaraq dərin mənəviyyata malikdir. Bu mənəvi keyfiyyəti gözəlliklərdən həzz almasında, hadisələrə həssaslığında, başına gələnlərin hikmətini şüur açıqlığı ilə qavramasında, sevgisində, şəfqətində, ədalətində, incə düşüncəsində, bir sözlə, həyatının hər anında mühüm fərq yaradır. Ona görə, Quran əxlaqı ilə tam yaşayan möminlər gözəl əxlaqlı, əsalətli, dərin düşünən, hədəfləri və düşüncələri geniş olan çox kübar insanlar olurlar.

## Bayağılıq miskinlik və sevgisizlik meydana gətirir

Keyfiyyət müsəlman üçün həyatda hər cəhətdən vacib xüsusiyyətdir. Lakin İslam dinini yanlış anlayanlar çox bayağı İslam anlayışını təbliğ etməyə və yaşamağa cəhd göstərirlər. Ona görə, bəzi insanlar da İslam dinini onların yaşadığı həyatla eyniləşdirir və İslama qarşı çıxırlar. Bu insanların yanlış anlayışına görə, müsəlmanlar dünyanın bir çox ölkəsində sərt qarşılanır. Bunlar yanlış anlayışlarına görə, əsasən, baxımsız, kirli, çirkin, İslama

və Qurana uyğun olmayan sistemi İslam dini kimi təqdim edirlər. Yemək yeyərkən, geyinərkən, danışarkən çox bayağı davranır və bu cür bayağı həyat tərzini israrla davam etdirirlər. Gözəlliyi tamamilə aradan qaldıran model formalaşdırır və gözəlliyi haram hesab edir, çirkin və baxımsız insanın təqvalı olduğunu iddia edirlər. Musiqi dinləmir, rəsm sevmir, insanlardan uzaq durur, danışmır, iltifat etmirlər. Bu düşüncələrinə və bayağı həyat tərzlərinə görə həyatdan küsürlər. Allah'ın əmrinə əsasən, namaz qılır, oruc tuturlar, lakin bu əmrləri yerinə yetirmək onları sevindirmir, əksinə, qaraqabaq olurlar. Bayağılıq üzərlərinə çökdüyünə görə, evlərinin içi, özləri, hətta yaşadıqları şəhərlər belə baxımsız və miskin olur. Küçələrdə rəngsiz, ağacsız, çiçəksiz mühit, ətrafa səpələnmiş zir-zibil, qeyri-estetik binalar, baxıma möhtac tarixi tikililər olur.

Bu insanlar bir-birlərinə və qadınlara hörmət etmir, alçaldıcı üslubla danışırlar. Başqalarına hörmətlə yanaşmır, mübahisə edir, qışqırıb-bağırır və dalaşırlar. Kobud və zorakıdırlar. Bayraq yandıran, qəzəb və nifrətlə öldürməkdən bəhs edən, əllərində dəyənək, üzlərində nifrət olan bu insanlar hər kəs üçün iyrənc mənzərədir.

Bayağı insanların ən əsas xüsusiyyətlərindən biri də təzyiq və zorakılıqla öz həyat tərzləri və inanclarını başqa insanlara mənimsətməyə çalışmalarıdır. Dini vəzifələri yerinə yetirməyən və ya inancı zəif olan insanlara sözlə və fiziki işgəncə verir, hətta öldürməyin belə doğru olduğunu vurğulayırlar. Halbuki, Allah Quranda təzyiq göstərməyi haram etmişdir. Qurana əsasən, müsəlman anlayışlı, mehriban olmalı, qarşısındakı insana doğrunu gözəl sözlə izah etməli, onun fikir və dəyərlərinə hörmət etməli, təkcə özü üçün deyil, bütün insanlar üçün ən gözəl mühiti təmin etməlidir.

Demokratiya və azadlığı məhdudlaşdıran, estetika və gözəllikdən uzaq hərəkətlər isə insanlara narahatlıq verir, onlarda əks-münasibət meydana gətirir. Xurafatçılar bu əks-münasibətin İslama qarşı olduğunu desələr də, əslində, əks-münasibət İslama deyil, bayağılığa qarşıdır. Quranda təsvir edilən İslam anlayışı isə keyfiyyətli həyat tərzidir.



## İslamda keyfiyyət Quranın ən əsas mövzularından biridir

Allah ən yüksək dərəcədə keyfiyyəti cənnətdə yaratmışdır. **"(Orada) hara baxsan, nemət və böyük bir mülk görərsən" (İnsan surəsi, 20)** ayəsində xəbər verildiyi kimi, cənnətin hər yerində keyfiyyət və gözəllik hakimdir.

*Geyimlər zövqlüdür:*

**Taftadan və atlazdan libaslar geyib qarşı-qarşıya əyləşəcəklər. (Duxan surəsi, 53)**

*Evlər və küçələr ehtişamlıdır:*

**Lakin Rəbbindən qorxanları üst-üstə tikilmiş, altından çaylar axan otaqlar gözləyir. Bu, Allah'ın vədidir. Allah vədinə xilaf çıxmaz. (Zumər surəsi, 20)**

*Əşyalar dəbdəbəlidir:*

**Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaqdır. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız. (Zuxruf surəsi, 71)**

*İnsanlar kübar və gözəldir:*

**Orada xoş xasiyyətli, gözəl üzlü qadınlar vardır. (Rəhman surəsi, 70)**

Allah'ın cənnətdə yaratdığı bu gözəllik və keyfiyyətin dünyadakı bənzəri isə ancaq əsl İslam əxlaqı ilə yaşamaqla mümkündür. Əsl İslam dinində iltifat, fədakarlıq, sülh, sevgi, demokratiya, əyləncə, estetika və həmçinin gözəl, baxımlı, cazibədar insanlar var. Belə İslam anlayışı dünyada İttihadi-İslamın qəbul edilməsinə və İslam əxlaqının hakim olmasına vəsilə olar. Dövrümüzdə bu İslam anlayışının hakim olmasına Hz. Mehdi (ə.s) vəsilə olacaq. Hədislərdən bu dövrdə insanların daima gözəlliklə qarşılaşacağı, əxlaqları kimi yaşadıqları yerlərin, bağların, evlərin dekorasiyasının, geyimlərinin, dinlədikləri musiqinin, əyləncə tərzlərinin, rəsmlərinin, söhbətlərinin də gözəlləşəcəyi başa düşülür. Peyğəmbərimiz (s.ə.v) bir hədisində Hz. Mehdi (ə.s) dövründəki bu gözəl mühiti belə müjdələmişdir:

***DÜNYADA VİRANƏ YER QALMAYACAQ VƏ HZ. MEHDİ (Ə.S) HƏR YERİ BƏRPA EDƏCƏK, ABADLAŞDIRACAQ.*** (El Mehdiyy-il Mev'ud, 1-ci cild, s. 264)

Keyfiyyət həyatın ən başlıca bərbəzəyidir. Keyfiyyət itdikdə insanlar bədbinləşir, narahat olur, eqoist və hissiyyatsız olur. İbadətlərini yerinə yetirirlər, ancaq bayağılığa görə bədbəxt olurlar. Qaranlıq, miskin evlər, estetikadan uzaq məkanlar, baxımsız ibadətxanalar insanlara xoşbəxtlik gətirmir. Baxımsız görünən, üzündə sevgi ifadəsi olmayan, bezgin, qəzəbli, pis üslubla danışan, gözəlliklərdən zövq almayan, hətta





bunları məhv etməyə çalışan, bir sözlə, mənfi enerjilərini ətrafa yayan insanlar cəmiyyətdə çoxalır.

Belə cəmiyyətdə isə qardaşlıq, gözəllik, sevgi, əmin-amanlıq, qısaca desək, rahatlıq yox olur. İnsanlar bir-birindən uzaqlaşır və hətta bir-birindən çəkinib qorxurlar.

Bu bəladan xilas olmağın yeganə yolu isə Quranda bildirilən, xurafatdan uzaq İslam əxlaqını tam mənimsəməkdir.

## Həyatı boyu çoxlu sayda insanın hidayətinə vəsilə olan mübarək Peyğəmbərimizin (s.ə.v) keyfiyyət anlayışı hər birimiz üçün nümunədir

Peyğəmbərimiz (s.ə.v) çox keyfiyyətli həyat yaşamış, həmişə yüksək əxlaqla davranmışdır. Ən gözəl, ən təmiz yeməklər yemiş, ən gözəl paltarlar geyinmişdir. Əbası həmişə ağ və tərtəmiz, dişləri parlaq, təmiz olmuşdur. Keçdiyi yollarda xoş ətrinin qoxusu qalmış, olduğu mühitləri sanki cənnətə çevirmişdir. Hətta səhra şəraitində gül bağları salacaq qədər gözəllik və estetikaya meyilli olmuşdur. O dövrdəki imkanlarla ən gözəl şərtlərdə keyfiyyətli həyat yaşamışdır.

Peyğəmbərimizin (s.ə.v) seçdiyi sözlər, işlətdiyi cümlələr, müraciət formaları çox keyfiyyətlidir. Hz. Aişə (r.ə): "Rəsulullahdan (s.ə.v) daha gözəl əxlaqlı heç kim yoxdur. Səhabələrdən və ailəsindən birisi onu çağırdıqda: "Buyurun", - deyə cavab verirdi. Buna görə Allah ona: "Həqiqətən də, sən böyük əxlaq sahibisən", - buyurmuşdur", - deyə Peyğəmbərimizin (s.ə.v) gözəl əxlaqını tərif etmişdir. Qadınlara verdiyi əhəmiyyət və üstünlük onun üstün mənəviyyatının göstəricilərindəndir. Uşaqlara olan sevgisi, daima gözəl söz söyləməsi, incə düşüncəli olması, Allah'dan çox qorxması, vicdanlı olması, qısaca desək, bizim nümunə götürdüyümüz bütün gözəl əxlaqi xüsusiyyətlər Peyğəmbərimizin (s.ə.v) keyfiyyətə verdiyi əhəmiyyətin dəlillərindəndir.

Peyğəmbərimiz (s.ə.v) dövrünün ən müasir, ən kübar insanıdır. Ən mərhəmətli, ən gözəl geyinən, ən gözəl davranan, ən ağıllı, ən şəfqətli, ən ədalətli şəxsdir. Allah'ın izni ilə, Hz. Mehdi (ə.s) dövründə hər kəs bu gözəl əxlaqla yaşayacaq. Bu dəyərli şəxsiyyətin vəsiləsilə dünya sanki cənnətə çevriləcək, bolluq, bərəkət, gözəlliklər artacaq, hər kəs bir-birinə sevgi, şəfqət göstərəcək, qarşısındakını öz nəfsindən üstün tutacaq.



## Hörmətli Adnan Oktar İslamda keyfiyyətin çox mühüm məsələ olduğundan bəhs edir:

*İncəsənətdə, elmdə, estetikada, siyasətdə - hər yerdə keyfiyyət olduqda bu cür İslam anlayışını hər kəs qəbul edər. İslamın yayılmamasının yeganə səbəbi keyfiyyətin əskik olmasıdır. Yoxsa insanlara, hətta dinsizə belə: "Sevgi, mərhəmət, şəfqət, dostluq, yoldaşlıq, demokratiya, xoş niyyət, xoşsöhbət mühit, sosial ədalət, elmdə, incəsənətdə, estetikada ən qabaqcıl irəliləyiş olacaq, nə deyirsən?" - desən: "Qəbul edirəm", - deyər. İslam məhz budur. Ancaq sən adama keyfiyyətli İslam anlayışı təqdim etmirsən. Bəzi ibadətləri əziyyətə çevirmişsən. Dostluq və sevginin yerini tamamilə başqa əhval-ruhiyyə tutub. İnsanlar dost-yoldaş ola bilmirlər. Məzhəblər arasında belə əlaqə qurmaq çox çətindir. Məsələn, bir dinsizlə dost olmaq, söhbət etmək çox asan olur, ancaq bir dindarla dost olmaq bəzi yerlərdə çox çətindir. Ona görə, İslamın yayılmasında, insanların İslamı qəbul etməsində əsas problem keyfiyyətdir. Başqa problem yoxdur. Əgər bir adam: "Mən təbliğ edirəm, ancaq İslam yayılmır", - deyirsə, səhvi özündə axtarsın. Çatışmayan cəhət keyfiyyətdir. Bəzi yerlərdə insanları yedirib-içirib, evlərində saxlayırlar. Təbii ki, əgər həmin adam kasıbdırsa, bir az dinə, yəni müsəlmanlara meyil edir. Ancaq bununla güclü nəticə əldə etmək olmaz. Təbliğ metodu, üslubu doğru deyil. Ona görə, insanların İslamı qəbul etməsi çətinləşir. İslamı o qədər mürəkkəb, çətin, həyatı da o qədər miskin, əskik göstərirlər ki, bu, adama cəhənnəm kimi gəlir. Nə gərək var? Cənnət kimi İslam, cənnət kimi mühit göstərsənə! Cənnət kimi üslubdan istifadə etsənə! Adam elə bir şeyi niyə inkar etsin ki? Elə qadın modeli təqdim edirlər ki, keyfiyyətdən əsər-əlamət yoxdur. Çirkinliyi, bayağılığı əsas götürürlər. Təqdim etdikləri model gözəlliyi tamamilə aradan qaldırır. Sanki gözəllik qadına yaraşmır, haram imiş kimi göstərirlər. Baxımlı, təmiz, kübar qadına: "Bunun müsəlmanlıqla əlaqəsi yoxdur", - deyirlər. Ancaq çirkin qadına: "Təqvalıdır", - deyirlər. Çirkin, baxımsız, saçı saqqalına qarışmış, pinti kişiyə: "Hər halda, bu övliyadır", - deyirlər. Musiqi dinləmir, rəsm xoşlamır, insanlardan uzaq*

*durur, danışmır, iltifat etmir, çox qəribə həyat yaşayır. Onu bəyənir, ancaq uzaq durur. Ondan həm utanır, həm də narahat olur. Ancaq gizlicə birisinə: "Hər halda, bu adam təqvalıdır", - deyir. "Ancaq evimə gəlməsin, mənim uşaqlarımla danışmasın, bizdən uzaq olsun", - deyir. O cəhətdən təhlükəli hesab edir. Kübar görünən insanlara isə dinsiz də olsalar, sevgi göstərir. Onlara heyran olur. Bu baxımsızlığı əsas götürən insanlar keyfiyyətə heyran olurlar, eyni zamanda, da düşməndirlər. Uşaqları, oğlu, qızı keyfiyyətə heyrandır. Ancaq praktiki cəhətdən keyfiyyəti yanlış yol kimi göstərirlər.* (7 dekabr 2012-ci il, A9 TV)

## Bayağılıq İslama düşmən olan gizli qüvvədir

Möminlər Quran əxlaqının qazandırdığı üstün keyfiyyət anlayışının İslamın bütün dünyaya təbliğ edilməsində nə qədər mühüm yer tutduğunu dərk edirlər. Əvvəla, iman gətirmiş insan sözləri ilə olduğu kimi, davranışları ilə də ətrafındakı insanlara Quran əxlaqını təbliğ edir. Ona görə, bir mömin anlayır ki, Quran ayələrində bildirilən bütün gözəl əxlaqi xüsusiyyətləri və incə davranışları, əvvəlcə, özü tətbiq etməli və digərlərinə nümunə olmalıdır. Çünki bayağılıq, əslində, İslama düşmən olan, içəridən müsəlmanlara zərər verən, Quran əxlaqının təbliğinə mənfi təsir edən gizli qüvvədir. İslam əxlaqının tərəfdarı olan və başqalarını da Quran əxlaqı ilə yaşamağa çağıran insanın özünün Quran əxlaqı ilə layiqincə yaşamaması, imanına yaraşmayan tərzdə davranması gizli şəkildə İslam əxlaqının təbliğinə ziyan vurur. Bayağı insanların Quran əxlaqına uyğun olmayan bayağı hərəkətlərlə gözəl əxlaq və keyfiyyətə tərəfdar olması insanlar üzərində müsbət təsirin formalaşmasına mane olur. Bir çox insan gözəl əxlaqı təbliğ edən insanların davranışlarındakı bu çatışmazlıqlara görə mənfi təsirlənirlər. Bu, onların Quran əxlaqı haqqında yanlış qənaətə gəlməsinə və məhz bu cür insanların davranışlarına görə İslamdan uzaqlaşmalarına səbəb olur.

Unutmaq olmaz ki, hər möminin təkbaşına İslamı və bütün müsəlmanları təmsil etmək kimi mühüm vəzifəsi var. Həyatının hər anında harada, hansı şərtlər altında və necə insanlarla olsa da, Quran əxlaqına uyğun həyatından əl çəkməməlidir. Olduğu mühitə, təmasda olduğu insanların əxlaqına, mövqeyinə və ya maddi gücünə, gördüyü işə, iştirak etdiyi söhbətin mövzusuna görə dəyişməməlidir. Çünki belə davranış Quran əxlaqına ziddir. Allah Quran ayələrində davamlı olan saleh əməllərin qəbul edildiyini bildirir. Mömin Allah'ın rizasına ən uyğun əxlaqda həyatının sonuna qədər qətiyyətli olar. Allah'ın rizasına uyğun olmadığını bilə-bilə Quran əxlaqına zidd hərəkətləri etməz. Allah'ın Quranda bildirdiyi və təriflədiyi təqva əxlaqına uyğun olan budur. Allah Quranda möminlərin təqva sahiblərinə rəhbər olan nümunəvi şəxslər olmağı qarşılarına məqsəd qoyan insanlar olduğunu belə bildirir:

**Və o kəslər ki: "Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan gözümüzün işığı olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam (rəhbər) et! – deyərlər. (Furqan surəsi, 74)**



# İnsan bədəni mütənasib şəkildə necə böyüyür?

Minlərlə kimyəvi və fiziki hadisə bədəninizin dərinliklərində insanın məlumatı və iradəsi xaricində reallaşır. Məsələn, insan boyunun uzunluğu, orqanlarının böyüklüyü ilə bağlı qərar verə bilməz. Bunları hipofiz vəzi tərəfindən ifraz olunan böyümə hormonu yerinə yetirir. Böyümə prosesi iki fərqli şəkildə reallaşır. Bəzi hüceyrələr həcmlərini artırırlar, bəzi hüceyrələr də bölünərək çoxalırlar. Böyümə hormonu bütün bədən hüceyrələrinə təsir edir. Hər hüceyrə hipofiz vəzindən özünə gələn mesajın mənasını bilir. Əgər böyüməsi lazımdırsa, böyüyür, bölünərək çoxalması lazımdırsa, çoxalır. Məsələn, yeni anadan olmuş körpənin ürəyi yetkin insanın ürəyinin təxminən 16-da biri (1/16) qədərdir. Buna baxmayaraq, bütün hüceyrələrin sayı yetkin insanın ürəyindəkilərlə eynidir. Böyümə hormonu inkişaf dövründə ürək hüceyrələrinə tək-tək təsir edir. Hər hüceyrə böyümə hormonunun özünə əmr etdiyi qədər inkişaf edir. Beləcə, ürək böyüyərək yetkin bir insan ürəyi halına gəlir.

Bədəndə olan digər hüceyrələr (məsələn, əzələ və sümük hüceyrələri) inkişaf dövrü zamanı bölünərək çoxalırlar. Bu hüceyrələrə nə qədər bölünmələri lazım olduğunu bildirən yenə böyümə hormonudur. Bu, olduqca möcüzəvi prosesdir. Çünki hipofiz adlı noxud böyüklüyündə bir ət parçası, bədəndə olan bütün hüceyrələrə hökm edir və bu hüceyrələrin həcmcə və ya bölünərək böyümələrini təmin edir. Bu hüceyrələrin insan bədənini xaricdən görməsi, bədənin nə qədər böyüməsini və hansı mərhələyə gəldikdə dayanmalı olduğunu bilməsi qeyri-mümkündür. Bu qüsursuz sistem ilə böyümənin və bu hormonun ifraz olunmasının hər mərhələsi nəzarətdə saxlanır.

Haqqında danışdığımız hüceyrələr ağlı, şüuru olmayan zülallardan ibarətdir. Vicdan sahibi hər insan bütün bu əməliyyatları hüceyrələrin həyata keçirmədiyini bilir. Hüceyrələrə nə qədər böyümələrinin lazım olduğunu ilham edən sonsuz ağıl sahibi olan Allah'dır.

**Daha sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluqat olaraq yaratdıq. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır! (Muminun surəsi, 14)**






# Rudiment (funksiyasını itirmiş) orqanlar saxtakarlığı

Təkamülçü ədəbiyyatda uzun müddət yer alan, amma əsassızlığı məlum olduqdan sonra səssiz-sədasız bir kənara qoyulan iddialardan biri də "rudiment orqanlar" anlayışıdır. Ancaq bəzi yerli təkamülçülər rudiment orqanları hələ də təkamülün böyük dəlili hesab edir və elə göstərməyə çalışırlar. Rudiment orqanlar iddiası bundan bir əsr əvvəl irəli sürülmüşdü. İddiaya əsasən, canlıların orqanizmlərində əcdadlarından onlara miras qalmış, ancaq istifadə edilmədiyi üçün zaman ərzində funksiyasını itirmiş orqanlar mövcuddur.

Bu, əsla elmi iddia deyildi, çünki məlumat çatışmazlığından qaynaqlanırdı. "Funksiyasını itirmiş" orqanlar, əslində, funksiyası müəyyən edilməmiş orqanlar idi. Bunun ən yaxşı göstəricisi də təkamülçülər tərəfindən sadalanan uzun rudiment orqanlar siyahısının getdikcə qısalması oldu. Özü də bir təkamülçü olan S.R.Skedinq "Təkamül nəzəriyyəsi" (Evolutionary theory) jurnalında dərc etdirdiyi "Rudiment orqanlar təkamülə dəlildirmi?" başlıqlı məqaləsində bu həqiqəti belə qəbul edir:

(Biologiya haqqında) məlumatımız artdıqca rudiment orqanlar siyahısı da getdikcə qısaldı... Bir orqanın funksiyasız olduğunu müəyyən etmək mümkün olmadığına və onsuz da rudiment orqanlar iddiası elmi xüsusiyyət daşımadığına görə, rudiment orqanların təkamül nəzəriyyəsi lehinə hər hansı dəlil təşkil etmədiyi nəticəsinə gəlmişəm.

Alman anatomiyaçısı R.Viderşeym tərəfindən 1895-ci ildə ortaya atılan rudiment insan orqanları siyahısı apendiks, büzdüm sümüyü kimi təxminən 100 orqandan ibarət



idi. (Apendiks, əsasən, apendisit kimi tanınan orqandır. Dilimizdə səhvən "apendisit" tələffüz edilən bu söz bu orqanın infeksiyaya uğramasına verilən addır). Ancaq elm inkişaf etdikcə Viderşeymin siyahısındakı orqanların hamısının orqanizmdə çox mühüm funksiya yerinə yetirdiyi məlum oldu. Məsələn, "rudiment orqan" hesab edilən apendiksin, əslində, orqanizmə daxil olan mikroblara qarşı mübarizə aparan limfa sisteminin bir hissəsi olduğu müəyyən edildi. Bu həqiqət 1997-ci il tarixli bir tibbi mənbədə belə bildirilir:

Orqanizmdəki qalxanabənzər vəz, dalaq, apendiks, sümük iliyi kimi orqanlar limfa sisteminin hissələridir. Onlar da orqanizmin infeksiya ilə mübarizə aparmasına kömək edirlər.

Eyni rudiment orqanlar siyahısına daxil edilmiş badamcıqların da boğazı xüsusilə yetkinlik yaşına qədər infeksiyalara qarşı qorumaqda mühüm rol oynadığı məlum oldu. Onurğa sümüyünün son hissəsi olan büzdüm sümüyünün isə çanaq sümüyünün ətrafındakı sümüklərə dəstək olduğu, bu səbəbdən, büzdüm sümüyü olmadan rahat oturmağın mümkün olmadığı məlum oldu. Bundan əlavə, bu sümüyün çanaq hissəsindəki orqanların və buradakı müxtəlif əzələlərin də birləşdiyi sümük olduğu müəyyən edildi.

Sonrakı illərdə yenə rudiment orqanlardan hesab edilən qalxanabənzər vəzin T hüceyrələrini hərəkətə gətirərək orqanizmin limfa sistemini aktivləşdirdiyi, epifiz vəzin lütein hormonuna təsir edən melatonin hormonu ifraz etdiyi kəşf edildi. Tiroid vəzinin körpələrdə və uşaqlarda orqanizmin normal inkişafını təmin etdiyi və maddələr mübadiləsi və orqanizmin aktivliyinin tənzimlənməsində rol oynadığı müəyyən edildi. Hipofiz vəzinin ön payının da tiroid, böyrəküstü vəz, çoxalma vəzləri kimi bir çox hormon vəzinin düzgün fəaliyyət göstərməsini və skeletin inkişafını tənzimlədiyi aşkar edildi.

Darvin tərəfindən rudiment orqan adlandırılan gözdəki aypara formasındakı çıxıntının isə gözün təmizlənməsi və nəmləndirilməsində mühüm rol oynadığı məlum oldu.

Rudiment orqanlar iddiasında təkamülçülərin çox mühüm məntiqi səhvi də vardı. Məlum olduğu kimi, bəzi təkamülçülər canlılardakı rudiment orqanların keçmişdəki əcdadlarından miras qaldığını iddia edirdilər. Halbuki, rudiment orqan hesab edilən bəzi orqanlar insanın əcdadı olduğu iddia edilən canlılarda yoxdur! Məsələn, təkamülçülər tərəfindən insanın əcdadı hesab edilən bəzi meymunlarda apendiks yoxdur. Rudiment orqanlar tezisinə qarşı çıxan bioloq H.Enok bu məntiqi səhvi belə ifadə edir:

İnsanların apendiksi var. Ancaq daha qədim əcdadları olan ibtidai meymunlarda apendiks yoxdur. Apendiks təəccüblü şəkildə



daha ibtidai quruluşa malik olan məməlilərdə, məsələn, opossumlarda yenidən üzə çıxır. Elə isə təkamül nəzəriyyəsi bunu necə açıqlaya bilər?

Bütün bunlarla bərabər, funksiyasını itirmiş bir orqanın zaman ərzində kiçilərək yox olması məntiqi cəhətdən ziddiyyətlidir. Bu ziddiyyəti dərk edən Darvin "Növlərin mənşəyi" kitabında belə etiraf edir:

Bununla yanaşı, başqa bir çətinlik də var. Bir orqan artıq funksiyasını itirdiyi üçün çox kiçildikdən sonra iz qoyaraq necə kiçilə bilir və nəticədə, necə tamamilə yoxa çıxır? Bir orqan bir dəfə funksiyasını itirdikdən sonra istifadəsiz qalmasının həmin orqana müsbət təsiri ola bilməz. Burada mənim verə bilməyəcəyim bir açıqlamaya ehtiyac var.

Qısaca desək, təkamülçülər tərəfindən ortaya atılan rudiment orqanlar ssenarisinin həm öz daxilində məntiqi səhvləri var, həm də elmi cəhətdən səhvdir. İnsanlarda əcdadlarından miras qalmış heç bir rudiment orqan yoxdur.

## Rudiment orqanlara daha bir zərbə: atın ayağı

Rudiment orqanlar nağılına ən son zərbəni atın ayağı üzərində aparılmış bir tədqiqat vurdu. "Təbiət" (Nature) jurnalının 20-27 dekabr 2001-ci il tarixli sayında dərc edilən "Biomexanika: təhlükəli vibrasiyalara qarşı amortizator" (Biomechanics: Damper for bad vibrations) adlı məqalədə belə deyilir:

Atların ayaqlarındakı bəzi əzələ lifləri heç bir funksiyası olmayan təkamül prosesinin qalıqları kimi görünür. Ancaq bu əzələ lifləri at qaçarkən ayağın içində əmələ gələn zərərli titrəmələrin qarşısını alırlar.

Məqalə belə davam edir:

Atların və dəvələrin ayaqlarında 6 millimetrdən daha qısa əzələ liflərinə bağlı olan 600 millimetrdən daha uzun vətərləri olan əzələləri var. Bu cür qısa əzələlər heyvan hərəkət etdikcə uzunluğunu ancaq bir neçə millimetr dəyişdirə bilir və bunlar böyük məməlilərin o qədər də işinə yarayan kimi görünmür. Vətərlər passiv yaylar kimi funksiya yerinə yetirir və qısa əzələ liflərinin lazımsız olduğu təkamül prosesində funksiyasını itirmiş daha uzun liflərin qalıqları olduğu hesab edilmişdir. Ancaq Uilson və həmkarları... Bu liflərin sümük və vətərləri potensial şəkildə zərər verən titrəmələrdən qoruduğunu irəli sürürlər...

Təcrübələr qısa əzələ liflərinin bir ayağın yerə vurulmasının ardınca əmələ gələn zərərli titrəmələri yavaşlatdığını göstərmişdir. Qaçan bir heyvan ayağını yerə vurduqda bu zərbə ayağın titrəməsinə səbəb olur, titrəmələrin tezliyi nisbi yüksəkdir.



Məsələn, atlarda 30-40 hz – ayaq yerdə ikən bu zərbələr yavaşladılmasa, artıq titrəmə dövranı baş verir.

Titrəmələr zərər verə bilər, çünki sümük və vətərlər yorğunluq vəziyyətindən tez təsirlənirlər. Sümük və vətərlərdəki yorğunluq təkrarən baş verən təzyiqdən qaynaqlanan zərərin toplanmasıdır. Sümük yorğunluğu həm atletlərdə, həm də yarış atlarında mənfi təsirlər meydana gətirən zərbə qırılmalarının səbəbidir və vətər yorğunluğu ən az bəzi vətər infeksiyalarının səbəbi ola bilər. Uilson və həmkarları çox qısa əzələ liflərinin əmələ gələn titrəmələri yavaşladaraq həm sümükləri, həm də vətərləri qoruduğunu irəli sürürlər.daha diqqətlə təhlil edilməsi təkamülçülərin funksiyasız olduğunu iddia etdikləri orqanların çox mühüm funksiyalarının olduğunu üzə çıxarmışdır.

Başqa sözlə, elmi irəliləyiş təkamülün dəlili kimi dəyərləndirilən xüsusiyyətlərin, əslində, yaradılış həqiqətinin dəlili olduğunu göstərmişdir. Təkamülçülər obyektiv hərəkət etməli və elmi kəşfləri ağılla dəyərləndirməlidirlər. "Təbiət" (Nature) jurnalında bu mövzu belə şərh edilir:

Uilson və həmkarları təkamül prosesi ərzində funksiyasını itirmiş bir orqanın qalığı kimi görünən bir əzələnin mühüm rolu olduğunu tapdı. Onların bu elmi fəaliyyəti digər rudiment orqanların da (insan apendiksi kimi) göründüyü kimi funksiyasız olub-olmadığı sualını doğurur.

Əldə edilən bu nəticələr təəccüblü deyil. Təbiətlə əlaqədar nə qədər çox şey öyrənsək, o qədər çox yaradılış dəlilini görürük. Maykl Behenin bildirdiyi kimi, dizaynın olduğu nəticəsinə bilmədiklərimizə deyil, son 50 il boyu öyrəndiklərimizə görə gəlirik. Buradan darvinizmin cahillikdən qaynaqlanan iddia olduğu məlum olur.



# DÜNYA YARADILMAMIŞDAN ƏVVƏL ALLAH BİZİM QƏDƏRİMİZİ YARATMIŞDIR

*Şübhəsiz ki, Biz hər şeyi qədərlə yaratdıq. (Qəmər surəsi,49)*

Hz. Musa (ə.s) və yanındakılar hal-hazırda yarılan dənizdən keçərək xilas olurlar. Fironun ordusu hal-hazırda suları birləşən dənizdə boğulur. Hz. Nuhun (ə.s) gəmisi və hz. Süleymanın (ə.s) sarayı hal-hazırda inşa edilir... Bütün bu hadisələr bizim bildiyimizdən də aydın və canlı şəkildə hal-hazırda uca Allah'ın dərgahında mövcuddur. Çünki Allah dünya yaradılmazdan əvvəl bütün varlıqların qədərini (taleyini) yaratmışdır.





Qədər Allah'ın bütün keçmiş və gələcək hadisələri tək bir an içində yaratmasıdır. Bu isə Allah qatında kainatın yaradılış anından qiyamətə qədər olan hər hadisənin baş verib bitdiyini göstərir. İnsanların böyük əksəriyyəti Allah'ın hələ baş verməmiş hadisələri əvvəlcədən necə bildiyini, Allah qatında bütün keçmiş və gələcək hadisələrin necə baş verib bitdiyini və qədəri heç cür qavraya bilmir. Halbuki, baş verməmiş hadisələr bizim üçün baş verməyib. Çünki biz Allah'ın yaratdığı zamana tabeyik və hafizəmizə verilən məlumatlar olmadan heç nə bilmərik. Allah dünyadakı imtahan mühitinin tələbinə uyğun olaraq gələcək adlandırdığımız hadisələri hafizəmizə vermədiyinə görə gələcəkdə nə olacağını bilmirik. Allah isə zamana və məkana tabe deyil, bunların hamısını yoxdan yaradan Özüdür. Ona görə, Allah üçün keçmiş, gələcək və indi birdir və hamısı olub bitmişdir. Allah bir hadisənin sonunu görmək üçün gözləmir. Onsuz da bir hadisənin əvvəli də, sonu da Onun dərgahında bir anda baş verir. Məsələn, fironun sonunun necə olduğunu Allah hələ hz. Musanı (ə.s) fironun yanına göndərmədən, hz. Musa (ə.s) hələ doğulmadan, hətta Misir dövləti qurulmadan əvvəl bilir və bütün bu hadisələr fironun sonu ilə birlikdə Allah qatında bir an kimi baş vermişdir. Bundan əlavə, Allah'ın keçmişi xatırlamağa ehtiyacı yoxdur. Keçmiş və gələcək hazır şəkildə Allah qatında eyni anda mövcuddur.

## *Allah bütün hadisələrin əvvəlini və sonunu eyni anda görür və bilir*

Bir insanın bütün həyatını film lenti kimi düşünək. Biz bu filmə video kasetdən baxırıq və lenti irəliyə çəkmək imkanımız yoxdur. Allah isə bu film lentinin hamısını eyni anda görür və bilir. Çünki bu filmi bütün təfərrüatı ilə müəyyən edən və yaradan Odur. Biz bir xətkeşin başını, ortasını və sonunu bir dəfədə görə bildiyimiz kimi, Allah bizim asılı olduğumuz zamanı əvvəlindən sonuna qədər bir an kimi ehtiva etmişdir. İnsanlar isə ancaq vaxtı çatdıqda bu hadisələrlə qarşılaşıb Allah'ın onlar üçün yaratdığı qədərə şahid olurlar. Dünyadakı bütün insanların qədəri də belədir. Bu günə qədər yaradılmış və bu gündən sonra yaradılacaq bütün insanların dünya və axirətdəki həyatının hər anı Allah'ın dərgahında hazır şəkildə durur. Allah'ın sonsuz hafizəsində itmədən saxlanılır. Qədər Allah'ın Hafiz (mühafizə edən, qoruyan) isminin, sonsuz gücünün, qüdrətinin və böyüklüyünün təcəllilərindən biridir. Allah Quranda insanların başına gələn hər şeyin əvvəlcədən bir kitabda yazıldığını belə bildirir:



**Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda yazılmamış olsun. Bu, Allah üçün çox asandır! Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə də verilənə sevinib qürrələnməməyiniz üçündür. Allah heç bir özündən razını, özünü öyəni sevmir. (Hədid surəsi, 22-23)**

## *Keçmiş, hafizəmizdəki məlumatlardan ibarətdir*

Bizə verilən təlqinə görə, biz keçmiş, indi və gələcək kimi hissələrə bölünmüş zaman kəsiklərində yaşadığımızı zənn edirik. Halbuki, keçmiş anlayışımızın olmasının yeganə səbəbi, daha əvvəl də bildirdiyimiz kimi, hafizəmizdə bəzi hadisələrin qalmasıdır. Məsələn, ibtidai sinfə getdiyimiz an hafizəmizdəki məlumatdır və biz ona görə, bu hadisəni keçmiş kimi qavrayırıq. Gələcəkdə baş verəcək hadisələr isə hafizəmizdə yoxdur. Ona görə, bizə hələ xəbərdar olmadığımız bu hadisələri gələcəkdə baş verəcək hadisələr kimi qəbul edirik. Halbuki, keçmiş baş verib bitdiyi kimi, gələcək də eyni şəkildə baş vermişdir. Ancaq bu hadisələr bizim hafizəmizə verilmədiyinə görə, bunları bilmirik.

Əgər Allah gələcəklə bağlı hadisələri də hafizəmizə versəydi, onda gələcək də bizim üçün keçmiş olardı. Məsələn, 30 yaşlı insanın hafizəsində 30 illik xatirələr, hadisələr var və buna görə, bu insan 30 illik keçmişinin olduğunu düşünür. Əgər bu insanın hafizəsinə 30-70 yaş arasındakı gələcəyinə dair hadisələr verilsə, onda 30 yaşlı bu insanın həm 30 ili, həm də 30-70 yaş arasındakı gələcəyi keçmişə çevrilir. Çünki keçmişi də, gələcəyi də hafizəsində olacaq, hər ikisi onun üçün baş vermiş hadisələr olacaq.

## *Hər insan qəbul edib-etməsə də, Allah'ın yazdığı qədəri yaşayır*

Keçmiş və gələcəyin, əslində, Allah qatında yaradıldığı və baş verib bitdiyi, Allah'ın dərgahında saxlandığı və hazır hadisələr olması bizə çox mühüm həqiqəti göstərir: hər insan qeyd-şərtsiz qədərinə təslim olmuşdur. İnsan keçmişini dəyişdirə bilmədiyi kimi, gələcəyini də dəyişdirə bilməz. Çünki keçmişi kimi gələcəyi də baş verib bitmişdir. Gələcəyindəki bütün hadisələr-nə vaxt, harada, nə yemək yeyəcəyi, kiminlə nə haqqında danışacağı, nə qədər pul qazanacağı, hansı xəstəliklərə tutulacağı, nə vaxt, necə, harada öləcəyi- hamısı bəllidir və bunları dəyişdirə bilməz. Çünki bunlar onsuz da Allah dərgahında Allah'ın sonsuz hafizəsində hazır durur. Ancaq bunlar haqqında məlumat insanın hafizəsində yoxdur. Ona görə, başlarına gələn hadisələrə kədərlənənlər, qəzəblənənlər, gələcəyi üçün qayğı çəkənlər özlərini əbəs yerə yorurlar. Çünki necə olacağından qorxub qayğısını çəkdikləri gələcəkləri onsuz da olub-bitmişdir. Nə etsələr də, bunları dəyişdirmə imkanları yoxdur.

Allah bir ayədə: **"Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (qədər ilə) yaratdıq. (Qamər surəsi, 49)"** - deyə bildirir. Sadəcə insanların deyil, bütün canlıların, əşyaların, Günəşin, Ayın, dağların, ağacların, hər varlığın Allah qatında müəyyən edilmiş qədəri var. Məsələn, sınan bir antik vaz, qədərində müəyyən edilmiş



anda sınır. Bir neçə əsrlik bu vaz ilk dəfə emal edildikdə ondan kimlərin istifadə edəcəyi, hansı evin hansı guşəsində, hansı əşyalarla yanaşı qoyulacağı, vazın hər naxışı, üstündəki hər rəng qədərdə əvvəlcədən müəyyən edilmişdir. Vazın hansı gün, hansı saat, hansı dəqiqə, kim tərəfindən sındırılacağı da Allah'ın hafizəsində hazır saxlanılır. Hətta vazın ilk dəfə emal edildiyi an, ilk dəfə satılmaq üçün vitrinə qoyulduğu an, bir evin guşəsinə durduğu an və sınaraq çilik-çilik olduğu an, qısaca desək, vazın əsrlər ərzində mövcud olduğu hər an Allah dərgahında bircə an kimi mövcuddur. Ona görə, Allah insanlara əllərindən çıxan şeylərə kədərlənməməyi bildirir. Çünki əllərindən çıxan şeylər qədərlərində olduğu üçün baş vermişdir və o insanların bunu dəyişdirməyə gücü çatmır. Ancaq insanlar qədərlərində baş verən hadisələrdən ibrət almalı, özlərini tərbiyə etməli, bu hadisələrdəki hikməti və xeyirli cəhətləri görərək daima qədərlərini yaradan çox mərhəmətli, şəfqətli, ədalətli, qullarını bağışlayan və qoruyan Rəbbimizə üz tutmalıdırlar.

## Cənab Adnan Oktar qədərin Allah qatında bir an çərçivəsində yaradıldığından bəhs edir:



ADNAN OKTAR: *Biz zər aləmində ikən Allah'a Ona qul olacağımıza dair söz vermişik. Bəs zər aləmindən əvvəl nə edirdik? Ondan əvvəl cənnətdə və ya cəhənnəmdəki yerimizdə idik. Baxın, hələ dünyaya gəlməzdən əvvəl, hal-hazırda ya cənnətdə, ya cəhənnəmdəyik, yaşayırıq. Hal-hazırda çoxdan ölmüşük, hamımız ölmüşük. Ancaq eyni zamanda, hz. Adəmin (ə.s) də palçığı indi yoğurulur. II Dünya Müharibəsi indi davam edir, başqa bir şüur üçün.*

*Qədər budur, sonsuz qısa zaman var, sonsuz qısa zamana an deyilir. Saniyənin milyonda biri bir zamandır, trilyonda biri də zamandır, ancaq sonsuz qısa zamanda Allah sonsuz əvvəli və sonsuz sonranı yaratmış və bitmişdir. Biz zər aləmində Allah'a söz verərkən, eyni anda dünyada da cəhd edirdik. Yəni söz verdiyimiz anda dünyada idik, eyni anda da axirətdəyik. Bir pərdə var, biz bunun içindəyik, hamısını edib bitirmişik. Bir yerdə zər aləmində Allah'a söz veririk, bir yerdə hz. Adəmin (ə.s) palçığı yoğurulur, bir yerdə insanlar cənnətdə, bir yerdə cəhənnəmdədir, bu şəkildədir...*

*Bəziləri: "Allah bizim nə edəcəyimiz əvvəlcədən bilmir, ona görə, bizi sınayır", - deyə düşünürlər. Bu, Allah'ın İlahlıq vəsfinə uyğun olmaz, Allah'lıq vəsfinə yaraşmaz...*

*Allah qatında həyat çoxdan bitmişdir. Baxın, Quranda cənnətdə necə yaşadığımızı Allah bizə xəbər verir. Cəhənnəmdə kafirlərin çəkdiyi əzabdan bəhs edir, necə yaşadıqlarını bildirir...*

*Hamısı olub bitmişdir. Cüzi iradə də, külli iradə də Allah qatında çoxdan olub-bitmişdir.*

*Allah bizə özümüzün nə olduğunu göstərir, bizi bizə sevdirir, əsl məqsəd budur. Bizim nə etdiyimizi Allah bilir, ancaq bizə necə olduğumuzu göstərir* .(11 oktyabr 2010-cu il tarixli Kahramanmaraş Aksu TV müsahibəsindən)

# Fosillər Təkamülü Təkzib Edir

## Göbələk

*Dövr: Tabaşir*
*Yaşı: 100 milyon il*
*Bölgə: Myanma*

*Yuxarıda şəklini gördüyünüz içində göbələk olan bu kəhrəba keçmiş adı ilə Birma olan Myanmanın Hukavnq vadisindəki filiz mədənlərində tapılmışdır. Bu kəhrəbanın ən əsas xüsusiyyəti yaşıdır. 100 milyon il yaşı olan bu kəhrəba dünyanın ən qədim göbələk fosilidir. Bu göbələk fosili də digər bütün fosillər kimi çox mühüm həqiqəti göstərir: canlılar milyon illərdir heç bir dəyişikliyə məruz qalmayıb, yəni təkamül keçirməyiblər. Darvinistlərin iddialarını sübut edən bircə ara keçid fosil də yoxdur.*

*Göbələklər, əsasən, bitki hesab edilirlər, halbuki onlar öz qidalarını hazırlaya bilmirlər və başqa canlılardakı maddələrlə qidalanırlar.*

*Yer üzündə 1.5 milyona yaxın göbələk növü olduğu düşünülür, ancaq dövrümüzdə ancaq 69.000 növü müəyyən edilmişdir.*

*Göbələklər bitki və heyvan qalıqlarını çürüdərək elementlərin torpağa qarışmasını təmin etdiklərinə görə böyük əhəmiyyət kəsb edirlər. Torpağın quruluşunu bitkilər üçün humuslaşdıran göbələklər bitki və heyvan qalıqlarını çürüdərək karbon qazını ayırırlar. Göbələklərin 100 milyon il əvvəl də bu mühüm faydaları var idi, indi yaşayan göbələklər də eyni xüsusiyyətlərə malikdirlər və bir çox faydaları var. Əlbəttə, bu xüsusiyyətləri təkamül nəticəsində əldə etməyiblər. İlk andan etibarən bu xüsusiyyətlərlə yaradılıblar.*











## Buynuzlu akula

*Dövr: Tabaşir*
*Yaşı: 95 milyon il*
*Bölgə: Livan*

*Buynuzlu akulanın dövrümüzdə yaşayan canlı nümunələri təhlil edildikdə balığın uzun gövdəsində geniş çıxıntılar olduğu görünür. Balığın 95 milyon illik fosilinə baxdıqda da uzun gövdəsindəki çıxıntıların, baş və quyruq quruluşunun ən kiçik dəyişikliyə məruz qalmadığı açıq-aydın görürük. Buynuzlu akula dənizin dərinliklərində yaşayır, bəzən qarın üzgəclərini qayalara sürtür, mağara və ya riflərdə ovlarına tələ qururlar. Təqribən 1metr uzunluğunda olurlar. Şəkildəki 95 milyon illik buynuzlu akula fosili darvinistlərin məğlubiyyətini bir daha vurğulayır, bütün canlıları Rəbbimizin yaratdığını sübut edir.*







## Pəri balığı (Capros aper)

*Dövr: Oliqosen*
*Yaşı: 37-23 milyon il*
*Bölgə: Polşa*

*Təqribən 150 ildir davam edən paleontoloji fəaliyyətlər nəticəsində təkamülə dəlil olan bircə fosil də tapılmamışdır. Əldə edilən bütün fosillər canlıların təkamül keçirmədiyini göstərir. Pəri balığının dövrümüzdə yaşayan nümunəsi ilə 37-23 milyon illik fosili müqayisə edildikdə balığın belindən çıxan üzgəclərin, kəllə quruluşunun və quyruğunun heç bir dəyişikliyə məruz qalmadığı açıq-aşkar görünür. Balığın uzunluğu və eni, demək olar ki, bərabərdir. Bu balığın 6 növü də Atlantik, Sakit və Hind okeanlarının dərinliklərində yaşayır. Bu balıq növünü də digər bütün balıqlar kimi Allah yaratmış və canlı dövrümüzə qədər heç bir dəyişiklik keçirmədən nəslini davam etdirmişdir.*

*Aşağıdakı şəkildə 37-23 milyon illik pəri balığının sağ tərəfdə görünən və dövrümüzdə yaşayan nümunələri ilə eyni olması təkamülün böyük yalan olduğunu göstərən dəlillərdən biridir.*







*Əgər Allah'ın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.*

*Nəhl surəsi 18*

www.Allahrizasi.net




www.dinsizliyindini.com




www.adamliqdini.com




www.Allahinsonsuzgucu.net



**Adnan Oktarın (Harun Yəhya) Azərbaycan dilində rəsmi saytı:**

# WWW.ADNANOKTAR.AZ




**Qeyd: Daha əvvəl rəsmi sayt olaraq fəaliyyət göstərən www.harunyahya.az ünvanı müəllifə aid deyil və tamamilə başqa bir sayta yönləndirilib.**